

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

28 fevral 2025-ci il, cümə

№ 037 (6865)

Qiyməti 60 qəpik


# Tarixi səfər...

## İlham Əliyev: Biz konkret layihələri icra etməliyik



Bax səh. 2

# Ən yüksək zirvədə...

## İki qardaş ölkənin birliyinin daha da güclənməsində hakim partiyalar arasında əməkdaşlığın mühüm rolu var

Bax səh. 3

# Sülhə yaxınıqmı?



Bax səh. 2

# Dialoq və milli birlik...

Bax səh. 5

## Milli Məclisdən etiraz!

Milli Məclis Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin 25 fevral tarixli bəyanatını şiddətlə qınayıb, bu sənədi Avropa Parlamenti ilə Ermənistanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının növbəti nümunəsi kimi qiymətləndirib. Bu barədə Milli Məclisin Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin bəyanatına münasibətində bildirilib. Qeyd olunub ki, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş...

Bax səh. 4

## Əməkdaşlıq güclənir

Azərbaycanın xarici siyasətində Səudiyyə Ərəbistanı ilə əlaqələrin gücləndirilməsi mühüm yer tutur. Fevralın 26-da xarici işlər naziri Ceyhun Bayramovun bu ölkəyə rəsmi səfəri də bu faktı təsdiqləyir.

Qeyd edək ki, C.Bayramov səfər çərçivəsində Səudiyyə Ərəbistanının xarici işlər naziri şahzadə Feysəl bin Fərhan Əl Səud ilə görüşüb. Azərbaycan Xarici İşlər Nazirliyindən verilən məlumata görə, XİN başçıları arasında təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə...

Bax səh. 4

## Uğurlu üçtərəfli platforma...

Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yeri və rolu günü-gündən artmaqdadır. Müstəqil və milli maraqlara söykənən xarici siyasət kursu bu məsələdə əhəmiyyətli rol oynayır. Beynəlxalq münasibətlər sisteminin müstəqil subyekti olaraq Azərbaycan özünün xarici siyasət kursunda qarşılıqlı tərəfdaşlığa, ikitərəfli maraqlara əsaslanan əməkdaşlığa və çoxvektorlu...

Bax səh. 4

## Tarixi-mədəni irsimizin qorunması istiqamətində...

Mədəniyyət Nazirliyi tərəfindən regionlardakı tarixi-mədəni irsin bərpa və konservasiyası üzrə layihələrin hazırlanması ilə bağlı iş aparılır. Bu barədə nazirlikdən məlumat verilib. Bildirilib ki, bu istiqamətdə bir sıra abidənin bərpa layihələrinin hazırlanması ilə bağlı proses davam etdirilir.

Bildirilib ki, nazirlik həm də Heydər Əliyev Fondu tərəfindən...

Bax səh. 5



## Erməni təbliğatının “sınıq təkəri”...

Bax səh. 6



## Sülh masasındakı iqtisadi maraqlar...

Bax səh. 7



## Kilsədə qurulan “qisas müharibəsi” planları...

Bax səh. 6



# Tarixi səfər...

## İlham Əliyev: Biz konkret layihələri icra etməliyik







Azərbaycan Respublikasında rəsmi səfərdə olan Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun fevralın 27-də Bakıda rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Qvineya-Bisau Prezidenti Umaru Sisoku Embalonu qarşılayıb.

***

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə təkbətək görüşü olub.

## "Məhsuldar dialoqumuzu davam etdirəcəyik"

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə mətbuata bəyanatla çıxış edən dövlətimizin başçısı qonaqları salamlayaraq, sonuncu dəfə ötən ilin noyabr ayında COP29 konfransında iştirak etmək üçün ölkəmizdə olduqlarını xatırladıb: "Mən cənab Prezidenti Azərbaycana rəsmi səfərə dəvət etdim və şadam ki, o, mənim dəvətimi qəbul etdi. Beləliklə, bu gün cənab Prezident artıq ikinci dəfədir ki, ölkəmizdədir. Bu, bizim sıx qardaşlıq münasibətlərimizin aydın təzahürüdür. Bu onu göstərir ki, biz qardaş və dost kimi birgə işləyirik və bunu davam etdirəcəyik".

Səfərin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev bu səfəri tarixi səfər kimi səciyyələndirib: "Bu səfər tarixi səfərdir. İlk dəfədir ki, Qvineya-Bisaunun Prezidenti rəsmi səfərə gəlib. Biz artıq ikitərəfli gündəliyə aid olan mühüm məsələləri müzakirə etdik və belə razılığa gəldik ki, tərəfdaşlığımızı bütün sahələrdə gücləndirək. Siyasi münasibətlər çox yaxşıdır. Bir daha qeyd etmək istəyirəm, bunun ən yaxşı təzahürü ondan ibarətdir ki, cənab Prezident ölkəmizə ikinci dəfədir səfər edir. Beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləyirik, bunu belə də davam etdirəcəyik. BMT və digər beynəlxalq təsisatlarda, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında bir-birimizi dəstəkləyirik".

İqtisadi sahədə aparılan müzakirələrə gəlincə isə dövlətimizin başçısı bildirib ki, konkret layihələr, investisiya imkanlarının müəyyən edilməsi haqqında razılığa gəlinib: "Əminəm ki, beləliklə, biz ümumi məxrəcə gəlib çıxacağıq. Çünki biz artıq bir çox ölkələrə sərmayələr yatırırıq. Əlbəttə, biz məmnun olardıq ki, konkret layihələr fürsətlərini nəzərdən keçirək. Biz, həmçinin hesab edirik ki, bu, müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlıq etmək üçün fürsət yaradır. Cənab Prezident Azərbaycanın hərbi hissələrinin birində olacaq və ona, o cümlədən müdafiə sənayesi haqqında təqdimat ediləcək. Bu ola bilsin ki, bizim dostlarımız üçün maraqlı olsun.

Bir sözlə, gündəlik genişdir, ən vacibi isə odur ki, bizim dost, qardaş münasibətlərimiz var, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləyirik və biz konkret layihələri icra etməliyik. Çünki siyasi münasibətlər bunun üçün bir platforma kimi xidmət edir".

Mətbuata bəyanatının sonunda Prezident İlham Əliyev Umaru Sisoku Embalonun ölkəmizə bir daha səfər edəcəyinə əminliyini vurğulayıb: "Ümid edirəm ki, əziz qardaşım, Siz bir daha ölkəmizə gələcəksiniz. Həmçinin cənab Prezident məni öz ölkəsinə səfərə dəvət etdi. Məmnunluqla bunu edəcəyəm və biz öz məhsuldar dialoqumuzu davam etdirəcəyik".

## Əlaqələri yeniləmək üçün buradayıq

Sonra Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo mətbuata bəyanatla çıxış edib.

O, çıxışında Bakıda olmaqdan və münasibətlərimizə yenidən nəzər salmaqdan məmnunluğunu ifadə edib: "Çünki xatirimdədir ki, hələ Sovet İttifaqı vaxtlarında bir çox texniki heyət üzvlərimiz burada təhsil almışdır. Sabah ilk heyətimiz buraya polis və hərbi məktəblərdə təlim üçün gələcək. Bu, bizim üçün çox vacibdir. Bu gün biz bu əlaqələri yeniləmək üçün buradayıq. Əməkdaşlıq üçün sahə çoxdur - səhiyyə, təhsil, hərbi və təhlükəsizlik sahələri var. Əminik ki, bu səfər Sizi görməklə bərabər, ölkələrimiz üçün də faydalı olacaq".

Qvineya-Bisau və Azərbaycan iki dost ölkə olduğundan, amallarımızın ümumiliyindən söz açan Qvineya-Bisau Prezidenti vurğulayıb ki, bir sıra vacib məsələlər üzrə əminlik var: "BMT və İƏT çərçivəsində əməkdaşlıq edirik. Biz də, siz də həmin iki təşkilatın üzvüyük.

Təkbətək görüşdə biz beynəlxalq münasibətlərə aid çox məsələləri müzakirə etdik və bir-birimizi dəstəkləməklə bağlı razılığa gəldik. Düşünürəm ki, bu, daha vacibdir. Birgə işləmək üçün hədəfləri müəyyən edə bilərik. Əl-ələ verib ölkələrimizi daha yaxın etmək üçün işləyə bilərik".

***

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə lanç əsnasında geniş tərkibdə görüşü olub.

# Sülhə yaxınıqmı?

## İrəvan saziş layihəsi ilə bağlı Bakıdan cavab alıb

**Artıq bir neçə aydır dünyada yeni siyasi nizamın formalaşdırılması istiqamətində aktiv prosesləri müşahidə edirik, Cənubi Qafqazda da sülhün yaranması yeni münasibətlər sisteminin yaradılmasına yol aça bilər. Belə bir dövrdə regionumuzun sabit və inkişafa yönəlik üstünlükləri göz önünə çıxaraq yeni dividendlər yaradacaq. Təbii ki, ötən dövrdə sülh istiqamətində atılan addımlar, irəli sürülən təkliflər Azərbaycanın təşəbbüsü ilə ortaya çıxıb - sülh prosesinin məntiqi nəticəyə yaxınlaşması, ikitərəfli təmaslar sayəsində müəyyən irəliləyişlərə nail olunması üçün isə Ermənistan siyasi iradə nümayiş etdirməlidir. Çünki sülh daha çox Ermənistan üçün perspektiv vəd edir. Cənubi Qafqazın stabil və sabit məkan kimi şöhrət qazanması, tanınması, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapması, bir sözlə sülhün imzalanması İrəvanı fərqli xarici güclərin arxa bağçası olmaqdan xilas edəcək, bir dövlət kimi təsdiqləyəcək, eyni zamanda regionun ümumi inkişaf tempinə uyğunlaşdıracaq.**

### İki bənd hələ də razılaşdırılmayıb...

Sülh prosesinin indiki məqamında isə nəticəyə yaxınlıq hiss edilməkdədir - bu istiqamətdə müzakirələr daha da intensivləşib. Verilən açıqlamalar da onu göstərir ki sülh çox uzaqda deyil. Belə ki, jurnalistlərə açıqlamasında Ermənistanın baş naziri Nikol Paşinyan deyib ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin iki bəndi hələ də razılaşdırılmayıb. Hökumət başçısı bildirib ki, ötən gün İrəvan saziş layihəsi ilə bağlı Bakıdan cavab alıb. "Bu, artıq sülh müqaviləsinə 12-ci düzəlişdir. Sənəd Azərbaycanın bizim əvvəlki təkliflərimizə münasibətini əks etdirir. Hazırda cavab təşəbbüslərini formalaşdırmaq üçün onun təhlilini aparırıq" - Baş nazir qeyd edib.



### Aİ missiyası sülhə maneədir...

Paşinyan qeyd edib ki, tərəflər sərhəddə avropalı müşahidəçilərin yerləşdirilməsi məsələsində razılığa gələ bilməyib. Qeyd edək ki, Fransanın "Aİ missiyası" adı altında Cənubi Qafqaza yerləşdirdiyi bu kəşfiyyatçı qrupu sülh üçün ən böyük maneələrdən biridir. Ermənistana üzdə "havadarlıq" edən, arxa planda isə özünün korporativ maraqlarını əsas götürən Fransa məhz bu missiyanın əli ilə sülhün reallaşmasına bu və ya digər şəkildə əngəl törədir. Prezident İlham Əliyev ötən il dekabrın 17-də "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində bildirmişdi ki, sülh sazişi sənədinin ravzılaşdırılmamış maddələrindən biri başqa ölkələrin nümayəndələrini bizim sərhədimizdə yerləşdirməməklə bağlıdır: "Bu, niyə bizim üçün vacibdir? Çünki sözdə Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradılıb".

Fəaliyyətə başladığı ilk günlərdə heyəti 40 nəfərdən ibarət olan, bu gün isə artıq 200-dən artıq "durbinçinin" təmsil olunduğu qrup birmənalı şəkildə Azərbaycana qarşı təxribatların hazırlanmasında iştirakçı qismində çıxış edirlər. Fevral ayında "xidmət müddəti" 2 illiyinə artırılan qrup yalnız destruktiv fəaliyyətlə yadda qalır - eyni zamanda, sülh üçün ləngimə yaradır...

### Sülhün imzalanması üçün zəmin...

Beləliklə, prosesin qarşılıqlı əlaqələr fonunda davam etməsi həm də mühüm nəticələr üçün ümid yaradır. Artıq Ermənistan rəhbərliyi anlayır ki, sülh məsələsində Azərbaycanın iradəsi əsas şərtdir - ölkəmizin beynəlxalq hüquqa söykənən və ədalətə əsaslanan şərtləri regionun təhlükəsiz gələcək inkişafı üçün əsasdır. Əbədi sülhün formalaşması üçün isə müqavilədəki iki şərtlə yanaşı, həm də münbit şəraitin formalaşdırılması mühüm rol oynayır. Ermənistan uzun illərdir ki, davam edən əsassız iddialarından geri çəkilməli, paralel olaraq ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı mövqeyini açıqlamalıdır. İrəvan yalnız rəsmi şəkildə Konstitusiyasında dəyişiklik etməklə sülh prosesinin ardıcıllığını təmin edə bilər - bu, gələcək kataklizmlərin yaranması ehtimalını da indidən aradan qaldırmış olur. Ermənistan Konstitusiyasını dəyişmədikcə bu ölkənin Azərbaycana qarşı ərazi iddialarının hər an eskalasiyaya çevrilmə təhlükəsi var. Beləliklə, yaxın zamanda bu dəyişikliyin edilməsi perspektivi də sülhü yaxınlaşdıran amil kimi çıxış edəcək.

### Zəngəzur dəhlizi açılır?

Paşinyan iki ölkə arasında kommunikasiyaların açılması məsələsinə də toxunub. Bildirib ki, Bakı hələ ki, İrəvanın kommunikasiyaların açılması təklifinə rəsmi cavab verməyib. "Biz öz təkliflərimizi təqdim etmişik və Azərbaycandan müsbət cavab alacağımıza ümid edirik. Söhbət iki ölkə arasında dəmir yolu əlaqəsinin bərpasından, o cümlədən Azərbaycanın qərb rayonlarından Ermənistanın suveren ərazisindən keçməklə Naxçıvana yüklərin tranzitindən gedir. Öz növbəsində, Ermənistan Yerasx-Mehri (Arazdəyən-Mehri-red.) marşrutu üzrə dəmir yolu əlaqəsi imkanı əldə edəcək", - Paşinyan əlavə edib.

Ermənistan öz öhdəliklərini yerinə yetirəcəyi halda Azərbaycan üçün sülh məsələsi hər zaman aktualdır. Xüsusilə, Zəngəzur dəhlizi ilə bağlı məsələ İrəvan tərəfindən həyata keçirilməlidir. Qeyd edək ki, Prezident İlham Əliyev hər zaman bildirib ki, Ermənistan Azərbaycandan Azərbaycana maneəsiz getmək üçün bizə yol verməlidir. Vurğulanmalıdır ki, Zəngəzur dəhlizi Azərbaycandan Azərbaycana rahat və maneəsiz yol olduğu qədər Ermənistan üçün mühüm iqtisadi platformadır. Post-müharibə dövründə regional inkişafın əsas ünsürlərindən birini məhz Zəngəzur dəhlizi - Şərq-Qərb logistik ticarət və yükdaşıma yolu, onun elementləri, keçid məntəqələri və marşurutları təşkil edə bilər. Zəngəzur dəhlizinin ən mühüm üstünlüklərindən biri isə Avropa ilə Asiyanı birləşdirməklə yanaşı, Yaxın Şərq regionuna da yaxınlığıdır. Türkiyə vasitəsilə təkcə Avropaya deyil, eləcə də Yaxın Şərqə çıxış imkanı qazanacaq layihə tərəfdaşları bu üstünlükdən də yararlanmış olacaqlar. Bu isə Ermənistana mühüm üstünlüklər vəd edir. Dəhlizin açılması Ermənistanın iqtisadi potensialında mühüm dəyişikliklərə yol açacaq. Bütün bölgə dövlətləri bu xətt vasitəsilə birləşəcək və yeni iqtisadi güc müstəvisi yaradacaq ki, burada da Ermənsitan üçün böyük dividendlər gözlənilir...

***P.İSMAYILOV***

# Ən yüksək zirvədə...

## İki qardaş ölkənin birliyinin daha da güclənməsində hakim partiyalar arasında əməkdaşlığın mühüm rolu var

Bu günlərdə qardaş Türkiyədən xoş bir xəbər gəldi. Azərbaycanda da çox sevilən və böyük rəğbət bəslənilən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qardaş ölkənin ictimai-siyasi həyatında və dövlət idarəçiliyində artıq 25 ilə yaxın bir dövr ərzində müstəsna yer tutan, daim yenilənməkdə, inkişafda və yüksəlişdə olan Ədalət və İnkişaf Partiyasının (AK Parti) VIII Böyük Qurultayında partiyanın Sədri vəzifəsinə yenidən seçilib.

Bu münasibətlə Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu ünvanlayıb. Məktubda dövlətimizin başçısı Ədalət və İnkişaf Partiyasının Böyük Qurultayında müəyyən olunmuş yeni hədəflərin və qəbul edilmiş əhəmiyyətli qərarların qardaş Türkiyə xalqı üçün xeyirli və uğurlu olacağına, Türkiyəni daha da irəli aparacağına əminliyini ifadə edib. "Qurucusu olduğunuz partiyanın üzvlərinin Sizə layiq olduğunuz böyük etimadı təkrarən nümayiş etdirməsi uzun illər boyu ölkənizin rifahı və tərəqqisi, qardaş Türkiyə xalqının firavanlığı, eləcə də bütün Türk dünyasının yüksəlişi naminə yorulmaq bilmədən həyata keçirdiyiniz fədakar fəaliyyətə qədirbilənliklə verilən yüksək qiymətdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Lider amili hər bir ölkənin tarixində mühüm rol oynayır. Böyük şəxsiyyətlər - Mustafa Kamal Atatürk və Heydər Əliyev Türkiyədə və Azərbaycanda xilaskarlıq missiyaları yerinə yetiriblər. İki qardaş dövlətin hazırkı liderləri isə prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevdir. Bir-birilərinə "Əziz qardaşım" deyə xitab edən liderlərimiz uzaqgörən və müdrik siyasətləri ilə öz ölkələrini çətin sınaqlardan uğurla keçirərək yüksək inkişafını təmin edirlər. Prezident İlham Əliyev təbrik məktubunda qardaş ölkənin uğurlarına diqqət çəkərək vurğulayıb: "Danılmaz faktdır ki, ötən illər ərzində rəhbərliyinizlə Ədalət və İnkişaf Partiyasının öz prinsip və amallarına daim sadiq qalaraq atdığı addımlar sayəsində ölkənizin dövlətçiliyi daha da möhkəmlənmiş, sarsılmaz xalq-iqtidar birliyi formalaşmış, eləcə də Türkiyə qlobal güc mərkəzinə - dünyanın ən aparıcı və qüdrətli dövlətlərindən birinə çevrilmişdir. Təsadüfi









### Qlobal güc mərkəzinə, Türk dünyasının inam yerinə çevrilən qüdrətli Türkiyə

deyil ki, Siz bütün Türk dünyasında öz Vətənini, xalqını sevən müdrik və qətiyyətli lider kimi tanınır və sevilirsiniz. Dost və qardaş Azərbaycanda da Sizin uğurlarınız böyük fərəh hissi ilə qarşılanır və daim təqdir olunur".

Bəli, qardaş Türkiyə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə öz inkişafında keyfiyyətcə yeni bir mərhələyə keçib. Hazırda Türkiyə regionda sülhün, sabitliyin, təhlükəsizliyin əsas qarantı qismində çıxış edir. Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat və siyasi mərkəzidir. Əlamətdar haldır ki, regionda qardaş ölkənin önəmi, rolu getdikcə artır. Son illərdə Türkiyə güclü sənaye inkişafı mərhələsinə qədəm qoyub. Qardaş ölkənin güclü sənayesi həm Türkiyənin özünü, həm də onun müttəfiqlərini gücləndirir.

### Hər iki ölkə üçün faydalı olan YAP-AK Parti əlaqələri

Bu gün Azərbaycanla Türkiyə arasında dostluğun zirvələrə yüksəlməsi də diqqətçəkən məqamdır. Qardaşlığımızın daha da möhkəmlənəcəyinə böyük inamını ifadə edən Prezident İlham Əliyev "Əminəm ki, bu sarsılmaz bağlar birgə səylərimizlə "Bir millət, iki dövlət" prinsipinə uyğun olaraq bundan sonra da daim möhkəmlənəcəkdir", - deyə bildirib.

Azərbaycanla Türkiyə arasındakı qardaşlığın unikallığı həm də ondadır ki, dövlətlərimiz, liderlərimiz qarşılıqlı əlaqələrin möhkəmlənməsinə güclü siyasi iradə göstərdikləri kimi, cəmiyyətlərimizdə də daha yaxın olmağa güclü istək var. Bu gün Azərbaycan cəmiyyətində Türkiyəyə, eyni zamanda qardaş ölkədə respublikamıza böyük rəğbət bəslənilir. O cümlədən hakim partiyalar olan Yeni Azərbaycan Partiyası (YAP) ilə AK Parti arasında yaranan əməkdaşlıq əlaqələri hər iki ölkə üçün faydalıdır. YAP-ın Sədri İlham Əliyev ilə AK Partinin Sədri Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri ölkələrimiz arasında digər sahələrdə olduğu kimi, hər iki hakim partiya arasında əməkdaşlıq əlaqələrini də keyfiyyətcə yeni mərhələyə yüksəldib.

Xüsusilə də Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra iki partiya arasında əlaqələr daha da intensivləşib. Burada 2021-ci il 2 iyun tarixində YAP ilə AK Parti arasında Əməkdaşlıq Protokolunun imzalanması xüsusi önəm daşıyır.

Yuxarıda qeyd olunduğu kimi, YAP və AK Parti hakim partiyalar kimi Azərbaycanın və Türkiyənin inkişafında müstəsna rol oynayırlar. Əlamətdar haldır ki, hər iki partiya öz ölkələrində qazandıqları təcrübəni bir-biri ilə bölüşürlər. Partiyaların nümayəndə heyətlərinin qarşılıqlı səfərləri və görüşlər keçirmələri müntəzəm hal alıb. Partiyalarımız, həmçinin beynəlxalq platformalar çərçivəsində də fəaliyyətlərini uzlaşdırırlar.

Vurğulamaq yerinə düşər ki, AK Partinin VIII Böyük Qurultayında YAP-ın nümayəndə heyəti də iştirak edib. Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibində Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov yer alıblar.

Səfər çərçivəsində bir sıra görüşlər də keçirilib. YAP Sədrinin müavini Tahir Budaqov ilə AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala və xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya arasında görüşlər zamanı dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq hakim partiyalar arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımların atıldığı diqqətə çatdırılıb. Qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı baxımından son dərəcə vacib olduğu bildirilərək 2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələn vəzifələrin uğurla icra olunduğu və hazırda partiyalararası münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyi məmnunluqla qeyd edilib, bundan sonra da birgə hərəkət edərək ümumi hədəflərin inamla reallaşdırılacağına əminlik ifadə olunub.

## İcma AP və Ermənistan parlamenti tərəfindən qəbul edilmiş sənədi rədd edir

Qərbi Azərbaycan İcması (QAİ) olaraq Avropa İttifaqı (Aİ)-Ermənistan Parlament Tərəfdaşlıq Komitəsinin fevralın 25-də keçirilmiş iclasında qəbul edilmiş yekun sənədi qınayır və tamamilə rədd edirik.

Bu fikir Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda, həmçinin bildirilib: "Avropa Parlamenti və Ermənistan parlamenti tərəfindən qəbul edilmiş sənəd irqçilik, insan hüquqlarına hörmətsizlik, Azərbaycanın ərazi bütövlüyünə qəsd xarakteri daşıyır və regionda yeni müharibənin yaradılmasına xidmət edir.

Azərbaycan ərazilərinin 20 faizini işğal edərək minə yaxın şəhər və kəndi dağıtmış, 20 mindən artıq azərbaycanlını Azərbaycan ərazisində qətlə yetirmiş, 4 minə yaxın azərbaycanlının itkin düşməsinə səbəb olmuş, milyonlarla mina və partlamamış hərbi sursatla Azərbaycan ərazilərinin 13 faizini çirkləndirmiş Ermənistan "demokratiya" təcəssümü və "sülh göyərçini" kimi qələmə verilir. Sanki irqçi ideologiya əsasında öz ərazisindən və vaxtilə işğal etdiyi Azərbaycan ərazilərindən bir milyondan artıq azərbaycanlını etnik təmizləməyə məruz qoymuş Ermənistan deyil. Azərbaycanlı qaçqın və məcburi köçkünlərin taleyinə otuz ildən artıqdır ki, biganə yanaşanların indi Azərbaycanın Qarabağ bölgəsindən könüllü köçüb getmiş ermənilərlə bağlı məsələləri qaldırması açıq-aşkar irqi ayrı-seçkiliyin nümunəsidir. Ermənistanda kütləvi və sistematik şəkildə dağıdılan Azərbaycan mədəni irsi, azərbaycanlıların pozulmuş mülkiyyət hüquqları və onların qayıdış hüququ məsələsini görməzdən gələn Avropa Parlamentinin insan hüquqları və humanitar hüquq məsələsindən danışmağa mənəvi haqqı yoxdur.

Xocalı faciəsinin ildönümündə həmin soyqırımını törətməkdə şübhəli bilinərək məhkəmə qarşısına çıxarılmış şəxslərin azadlığa buraxılmasına dair çağırış etmək məhkəmə müstəqilliyinə qarşı yönəlməklə, Xocalı qurbanlarının xatirəsinə hörmətsizlikdir. Bu cür çağırışlar faktiki olaraq, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı müharibə cinayətlərinə haqq qazandırır, Ermənistana cəzasızlıq vəd edir və onu bu cür cinayətləri təkrarlamağa cəsarətləndirir.

Militarist məqsədlərə xidmət edən "Avropa Sülh Fondu" və Avropa İttifaqının Ermənistandakı missiyasına (EUMA) sənəddə edilən çoxsaylı istinadlar Avropa İttifaqının Ermənistanın hərbiləşdirməsini bundan sonra da davam etdirəcəyinin göstəricisidir.

ATƏT-in Minsk qrupu adlı qondarma quruma, onun mənfur Madrid prinsiplərinə istinad bu bəyanatın müəlliflərinin əsl niyyətinin bölgədə yenidən münaqişə yaratmaq olmasına şübhə yeri qoymur.

Xüsusilə ciddi diqqət yetirilməli məqam ondan ibarətdir ki, bu bəyanata Ermənistanın hakim partiyasının çoxluq təşkil etdiyi parlamenti də razılıq verib. Bu, onu sübut edir ki, Ermənistan hökuməti sülh danışıqlarında səmimi deyil və bu danışıqlardan özünün kütləvi silahlanma proqramını başa çatdırmaq üçün örtük kimi istifadə edir.

Biz beynəlxalq ictimaiyyəti Ermənistanın və Avropa İttifaqının sülhə mane olan bu addımlarına qarşı çıxmağa çağırırıq".

# Milli Məclisdən etiraz!

## Bu bəyanat Avropa Parlamentində Azərbaycana münasibətdə dərin kök salmış nifrət siyasətinin növbəti təzahürüdür



Milli Məclis Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin 25 fevral tarixli bəyanatını şiddətlə qınayıb, bu sənədi Avropa Parlamenti ilə Ermənistanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının növbəti nümunəsi kimi qiymətləndirib. Bu barədə Milli Məclisin Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin bəyanatına münasibətində bildirilib. Qeyd olunub ki, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımının növbəti ildönümü ərəfəsində qəbul edilmiş bu bəyanat Azərbaycan əleyhinə səsləndirilmiş absurd və tamamilə əsassız ittihamlar həm Ermənistanın, həm də Avropa Parlamentinin əsl mahiyyətini bir daha ortaya qoyur. Nəticə etibarilə, bu bəyanat Ermənistan tərəfinin Azərbaycanla danışıqlar prosesində qeyri-səmimiliyini yenidən nümayiş etdirmiş oldu. Ermənistan parlamentinin, o cümlədən Komitənin işində iştirak edən hakim partiyanın nümayəndələrinin Ermənistan rəhbərliyinin Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınması, habelə dövlətlərarası münasibətlərin normallaşdırılması ilə bağlı çıxışlarına birbaşa zidd olan birgə bəyanatı dəstəkləməsi bunun bariz göstəricisidir. Digər tərəfdən, bu bəyanat Avropa Parlamentində Azərbaycana münasibətdə dərin kök salmış nifrət siyasətinin növbəti təzahürüdür.

"Bəyanatda Ermənistanı israrla qurban kimi qələmə verməyə çalışanlara xatırlatmaq istərdik ki, Ermənistan onilliklər boyu faşist ideologiyasını bəsləyən bir ölkədir. Bu ideologiya da onun Azərbaycana qarşı 30 illik təcavüzünün əsasını təşkil edir. İşğal dövründə Ermənistan ağır cinayətlər, o cümlədən hərbi cinayətlər, insanlığa qarşı cinayətlər və soyqırımı aktları törədib. Ermənistan etnik təmizləmə həyata keçirib və bir milyona yaxın azərbaycanlını öz doğma yurdlarından, o cümlədən Zəngəzur, Dərələyəz, Göyçə və digər ərazilərdən qaçqın və məcburi köçkün vəziyyətinə salıb. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini yerlə-yeksan edərək talan edib, dövlət və şəxsi mülkiyyətə milyardlarla ABŞ dolları dəyərində maddi ziyan vurub, işğal olunmuş ərazilərdə və Ermənistan ərazisində azərbaycanlılara məxsus mədəni irsi məhv edib və özününküləşdirib. Ermənistan sonrakı rəhbərliyi dövründə hərbi cinayətlərin araşdırılması üçün heç bir addım atmayıb. Onilliklər ərzində günahsız azərbaycanlılara qarşı törədilmiş ağır cinayətlərə görə heç bir erməni məsuliyyətə cəlb olunmayıb. Bu vəziyyət səhvən demokratik və insan haqlarının müdafiəçisi kimi təqdim edilən Ermənistanın indiki hökuməti dövründə də davam etməkdədir", - deyə Milli Məclis bəyan edib.

Milli Məclis diqqətə çatdırıb ki, Azərbaycan ərazilərinin işğalı ilə bağlı çoxsaylı beynəlxalq sənədlərə, o cümlədən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə baxmayaraq, nə Avropa İttifaqı, nə də onun parlament strukturu heç bir zaman Ermənistana qarşı sanksiyaların tətbiqinə çağırış etməyib və bununla da faktiki olaraq, Azərbaycan ərazilərinin qanunsuz işğalının davam etməsini təşviq edib. Bu isə Azərbaycana qarşı sanksiyaların tətbiqinə səsləyən avropalı parlamentarilərdə dərin kök salmış azərbaycanofobiya meyillərini ifşa edir. Eləcə də, Ermənistanın onilliklər boyu Azərbaycan ərazilərini minalarla çirkləndirməsinə, ölkəmizə qarşı bu irqçi siyasətin nəticələrinin aradan qaldırılması istiqamətində əməkdaşlıqdan yayınmasına münasibətdə də Avropa Parlamentindən hər hansı bir mövqe bildirilməməsi təəssüf doğuran digər bir məqamdır.

Qeyd edilib ki, avropalı parlamentarilər insan haqları, o cümlədən geri qayıtmaq hüququ haqqında danışarkən, nədənsə 1980-ci illərin sonlarında indiki Ermənistandan zorla qovulmuş təxminən 250 min azərbaycanlı qaçqının geri qayıtmaq hüququnu rahatlıqla gözardı edirlər: "Sağlam məntiq Avropa Parlamentinin bu fundamental insan haqları məsələsinə ədalətli yanaşma nümayiş etdirməsini, Ermənistanı bu insanların öz ata-baba torpaqlarına qayıtması üçün lazımi şərait yaratmağa çağırmasını tələb edir. Təəssüf ki, həm Ermənistan, həm də Avropa Parlamenti iki ölkə arasında etimadın qurulmasına müsbət töhfə verəcək bu məsələni görməzlikdən gəlməyə israr edirlər. Bu cür davranış isə Avropa İttifaqının qoruduğunu iddia etdiyi liberal dəyərlərə tamamilə ziddir".

Aİ-nin Ermənistandakı missiyası (EUMA) ilə bağlı Milli Məclis qeyd edib ki, bu missiya Azərbaycan tərəfinə verilən vədlərə zidd olaraq yaradılıb və Ermənistanla Azərbaycan arasında regional sabitliyin və etimadın gücləndirilməsinə dair öncədən bəyan edilmiş məqsədə xidmət etmir: "Müşahidələr göstərir ki, EUMA faktiki olaraq, düşmənçilik yaymaq və əsassız azərbaycanofobiyanı qızışdırmaq üçün təbliğat vasitəsi kimi geniş şəkildə istifadə edilir".

Bütün bunların fonunda, Milli Məclis Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin tarixi faktları təhrif edən və Azərbaycanı ədalətsiz şəkildə ittiham edən qərəzli və birtərəfli bəyanatını qəti şəkildə rədd edir: "Belə addımlar yalnız fikir ayrılıqlarını dərinləşdirməyə xidmət edir, sülh və barışığı təmin etmək səylərini sarsıdır. Əgər Avropa Parlamenti həqiqətən də Cənubi Qafqazda sabitliyi təşviq etməyə çalışırsa, bu qurum ötən dövrlərdəki haqsızlıqları etiraf edən, Ermənistanın revanşist siyasətini və militarizasiya cəhdlərini təşviq etməyən tarazlı və ədalətli yanaşmanı rəhbər tutmalıdır".

*Nardar BAYRAMLI*

# Əməkdaşlıq güclənir

## Azərbaycanın xarici siyasətində Səudiyyə Ərəbistanı ilə münasibətlər mühüm yer tutur

Azərbaycanın xarici siyasətində Səudiyyə Ərəbistanı ilə əlaqələrin gücləndirilməsi mühüm yer tutur. Fevralın 26-da xarici işlər naziri Ceyhun Bayramovun bu ölkəyə rəsmi səfəri də bu faktı təsdiqləyir.

Qeyd edək ki, C.Bayramov səfər çərçivəsində Səudiyyə Ərəbistanının xarici işlər naziri şahzadə Feysəl bin Fərhan Əl Səud ilə görüşüb. Azərbaycan Xarici İşlər Nazirliyindən verilən məlumata görə, XİN başçıları arasında təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib. Görüşdə Azərbaycan və Səudiyyə Ərəbistanı arasında ikitərəfli və çoxtərəfli münasibətlər gündəliyində duran, habelə qarşılıqlı maraq doğuran digər məsələlər, həmçinin regional, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və Yaxın Şərqdə vəziyyət müzakirə olunub.



Tərəflər ölkə rəhbərləri arasında qarşılıqlı hörmət və təmasların münasibətlərə xüsusi təkan verdiyini vurğulayıblar. Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında mədəni yaxınlığın, tarixi dostluq münasibətlərinin, qarşılıqlı hörmət, dəstək və anlaşmanın əməkdaşlığın inkişafına təkan verdiyini, belə səfər və təmasların mövcud əməkdaşlığın daha da gücləndirilməsi imkanlarının müzakirəsi baxımından faydalı olduğu diqqətə çatdırılıb. İki ölkə arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, energetika, humanitar sahələr üzrə əməkdaşlıq məsələlərinin müzakirə olunduğu görüşdə, həmçinin çoxtərəfli platformalar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı faydalı fəaliyyətin əhəmiyyəti vurğulanıb.

Azərbaycan Hökuməti ilə Səudiyyə Ərəbistanı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclər sahələrində əməkdaşlıq üzrə müştərək Komissiyanın fəaliyyətinə toxunulub, sözügedən Komissiyanın müvafiq sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi üçün vacib platforma olduğu qeyd edilib.

Görüşdə nazirlər alternativ enerji istehsalı sahəsində Azərbaycanla Səudiyyə Ərəbistanı arasında əməkdaşlıqdan məmnun olduqlarını bildiriblər. Bununla yanaşı, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin rəhbərlik etdiyi konsorsiumun Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı zavodu layihəsinin əməkdaşlığa əlavə töhfə verəcəyi diqqətə çatdırılıb. Ölkəmizin COP29-a sədrliyinin əməkdaşlıq üçün yeni imkanlar yaratdığı qeyd edilib, bu xüsusda yaşıl enerji, ətraf mühitin qorunması sahələri üzrə birgə təşəbbüslərin həyata keçirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb.

C.Bayramov, həmçinin həmkarını postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri barədə məlumatlandırıb. Minasızlaşdırma fəaliyyətində Səudiyyə Ərəbistanının verdiyi dəstəyə görə təşəkkür edilib.

Söhbət zamanı Qəzza ətrafında vəziyyət barədə də fikir mübadiləsi aparılıb, Qəzza zolağında əldə edilmiş atəşkəsin qorunmasının vacibliyi vurğulanıb. Bununla yanaşı, qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər nəzərdən keçirilib.

*Nardar BAYRAMLI*

# Uğurlu üçtərəfli platforma...

## XİN başçılarının növbəti görüşü Türkiyədə baş tutacaq

**Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yeri və rolu günü-gündən artmaqdadır. Müstəqil və milli maraqlara söykənən xarici siyasət kursu bu məsələdə əhəmiyyətli rol oynayır. Beynəlxalq münasibətlər sisteminin müstəqil subyekti olaraq Azərbaycan özünün xarici siyasət kursunda qarşılıqlı tərəfdaşlığa, ikitərəfli maraqlara əsaslanan əməkdaşlığa və çoxvektorlu yaxın əlaqələrə əsaslanır. Bu gün ölkəmiz ilə dünyanın əksər dövlətləri və təşkilatları arasındakı münasibətlər məhz bu müstəvidə tənzimlənir, hüquqi çərçivəsini müəyyənləşdirir.**

## Azərbaycan, Türkiyə və Gürcüstanın birgə platforması...

Ölkəmizin yürütdüyü dövlət siyasətində qonşu ölkələrlə əlaqələrin inkişafı xüsusi yer tutur. Azərbaycan hər zaman öz qonşuları ilə əlaqələrin möhkəmləndirilməsi, daha da yaxınlaşdırılması istiqamətində fəaliyyət göstərir. Yerləşdiyimiz Cənubi Qafqaz regionu geosiyasi baxımdan strateji əhəmiyyət daşıdığı üçün region ölkələrinin yaxın qonşuluq münasibətləri zəminində əməkdaşlığına hər zaman böyük ehtiyac duyulub. Ona görə də, Azərbaycan qonşu ölkələrlə normal qarşılıqlı əlaqələrin güclənməsinə hər zaman böyük önəm verib. Qarşılıqlı əlaqələrin gücləndirilməsi prosesində üçtərəfli görüş platforması bu mənada əhəmiyyət kəsb edir. Məsələn, Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət başçıları, xarici işlər və müdafiə nazirləri mütəmadi olaraq görüşürlər. Bu, artıq ənənə halını alıb və uğurla davam etdirilir.

Yeri gəlmişkən, Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin üçtərəfli formatda növbəti görüşü yaxın vaxtlarda Türkiyədə keçiriləcək. Bu barədə Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili türkiyəli həmkarı Hakan Fidanla görüşdən sonra məlumat verib. O deyib ki, görüşdə Gürcüstan, Azərbaycan və Türkiyə arasında üçtərəfli əməkdaşlıq formatının nəticələri yüksək qiymətləndirilib. Tərəflər həmçinin, yaxın günlərdə üçtərəfli formatda növbəti görüşün Türkiyədə keçirilməsi barədə razılıq əldə ediblər. Xatırladaq ki, XİN başçılarının sonuncu - 9-cu görüşü ötən il martın 15-də Bakıda keçirilmişdi.



## Üç ölkə önəmli layihələrə imza atıb

Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı sıx üçtərəfli siyasi, iqtisadi əlaqələrdən doğan birgə layihələrin gerçəkləşməsi bölgənin inkişafında, sabitliyinin qorunmasında və dünyaya inteqrasiyasında aparıcı faktora çevrilib. Məlumdur ki, üçtərəfli platforma uzun müddətdir mövcuddur. Qeyd etdiyimiz kimi, hər 3 ölkənin liderlərinin, xarici işlər və müdafiə nazirlərinin görüşləri mütəmadi olaraq keçirilir. Bildiyimiz kimi, Azərbaycan, Gürcüstan və Türkiyə arasında təməli illər öncə qoyulan uğurlu siyasi, iqtisadi əməkdaşlıq Avropa və Asiya qitələrinin qovuşuğunda yerləşən Cənubi Qafqaz regionunun strateji əhəmiyyətini xeyli artırıb. Bakı ilə Ankaranın təşəbbüsləri, o cümlədən sülh diplomatiyası bölgədə sabitlik, təhlükəsizlik və əməkdaşlıq üçün etibarlı zəmin formalaşdırır. Postmüharibə dövründə bölgədə qlobal əhəmiyyətli yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı faktor kimi çıxış edir. Qonşu Gürcüstan da iki dövlətlə birgə addımlayaraq regionun strateji gələcəyini birlikdə inşa etmək istəyini və niyyətini aydın ifadə edir.

Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı sıx üçtərəfli siyasi, iqtisadi əlaqələrdən doğan birgə layihələrin gerçəkləşməsi bölgənin inkişafında, sabitliyin qorunmasında və dünyaya inteqrasiyasında aparıcı faktora çevrilib. Nəhəng enerji şirkətlərinin də iştirak etdiyi Azərbaycan, Gürcüstan və Türkiyənin enerji sahələri üzrə əməkdaşlığı öz səmərəliliyinə görə dünyada nümunəvi təcrübələrdən biri hesab oluna bilər. Azərbaycan, Gürcüstan və Türkiyənin enerji sahəsində əməkdaşlığı həm region dövlətlərinin iqtisadi, siyasi və təhlükəsizlik maraqlarına, həm də Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyini təmin etmək siyasətinə uyğundur. Xatırladaq ki, üç ölkənin əməkdaşlığı ilə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi reallığa çevrilib. Bundan əlavə, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçtərəfli strateji əməkdaşlığın səmərəli nəticələridir.

## Tərəflərin hərbi əməkdaşlığı regionda sülhə xidmət edir

Regional hərbi əməkdaşlıq məsələlərinə gəldikdə isə qeyd etməliyik ki, Türkiyə NATO üzvüdür, Azərbaycan və Gürcüstan isə heç bir hərbi blokda iştirak etmir və bütün tərəflərlə qarşılıqlı, faydalı, bərabərhüquqlu əməkdaşlığa üstünlük verir. Bu yanaşmalar fonunda hər 3 ölkə müxtəlif sahələr üzrə, xüsusilə hərbi sahədə birgə əməkdaşlıq imkanlarını getdikcə daha da inkişaf etdirir. Digər tərəfdən, Türkiyənin Qafqazda keçirilən hərbi təlimlərdə iştirak etməsi, onun regionda möhkəmlənməsi və nüfuzunun artması deməkdir. Bu isə istənilən halda həm Türkiyənin, həm Azərbaycanın, həm də Gürcüstanın strateji maraqlarına uyğundur.

Zaman keçdikcə hər üç ölkə arasında bütün istiqamətlər üzrə daha da sıx münasibətlər yaranır. Azərbaycan-Gürcüstan-Türkiyə arasında əməkdaşlıq regionda sülhün və sabitliyin qorunmasına, rifah səviyyəsinin artırılmasına xidmət edir. Xatırladaq ki, bir neçə il öncə Azərbaycan, Gürcüstan və Türkiyə arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu da imzalanıb. Bu isə hər üç ölkə arasında hərbi əlaqələrin daha da genişlənməsi, gücləndirilməsi və keyfiyyət baxımından yeni bir səviyyəyə çatdırılması üçün çox vacib sənəd hesab edilir.

Beləliklə, üçtərəfli platforma həm Azərbaycan, Türkiyə və Gürcüstanın strateji maraqlarının təmin olunması, həm də regional əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi baxımından əhəmiyyətlidir. Bu, eyni zamanda mühüm perspektivlər vəd edir və gələcəkdə yeni işbirliyi nümunələrinin yaradılmasını təşviq edə bilər.

*Nardar BAYRAMLI*

## Siyasi partiyalarla görüşlərin təşkili ictimai münasibətlərin daha yüksək inkişafına yol açır

# Dialoq və milli birlik...

Ölkəmizdə formalaşan yeni siyasi konfiqurasiya dialoq mühitinin inkişafına mühüm töhfələr verib. Fərqli siyasi baxışlara malik təşkilatların milli maraqlara söykənən məsələlərdə vahid mövqedən çıxış etməsi olduqca mühüm mənzərə formalaşdırır - xüsusilə, İkinci Qarabağ müharibəsi dövründə Ali Baş Komandanın ətrafında birlik nümayiş etdirərək siyasi həmrəylik nümunəsinin ortaya qoyulması Azərbaycanın demokratik və hüquqi dövlət quruculuğu prosesində əldə etdiyi mühüm nailiyyətdir. Bu proses uğurla davam edir və Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə baş tutan müzakirələr siyasi həmrəyliyin gücləndirilməsi istiqamətində əsaslı addımlar kimi dəyərləndirilir. Siyasi partiyalarla dövlət orqanları arasında konstruktiv əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məqsədilə Prezident Administrasiyası tərəfindən fevralın 25-də Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Ədliyyə və Maliyyə nazirliklərinin, Hesablama Palatasının, 24 siyasi partiyanın nümayəndələrinin, həmçinin tanınmış alimlərin, politoloqların, siyasi şərhçilərin, internet televiziya kanallarının və onlayn media subyektlərinin nümayəndələrinin iştirakı ilə "Suverenliyin bərpası: siyasi müstəvidə yeni münasibətlər sisteminin formalaşdırılması" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə çıxış edən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ötən dövr ərzində mövcud istiqamətdə görülmüş işlər haqqında danışaraq, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı olaraq müxtəlif siyasi qüvvələr arasında konstruktiv əməkdaşlıq, sağlam siyasi dialoq və ümummilli məsələlərdə həmrəylik mühitinin təşviq olunduğunu bildirib. Yeni siyasi konfiqurasiya haqqında söhbət açan Ə.Vəliyev dövlət idarəetməsinin davamlı inkişafı naminə cəmiyyətdə mövcud potensialın səfərbər olunmasında siyasi partiyaların rolunu vurğulayaraq, sağlam əməkdaşlıq mühitinin sabitliyi və tərəqqini təmin edən əsas amillər olduğunu ifadə edib. Tədbirdə iştirak edən siyasi partiyaların nümayəndələri müzakirə edilən mövzularla bağlı fikirlərini bölüşüblər.



## Elşad Musayev: Siyasi qüvvələrlə hakimiyyət arasında dialoq mühiti çox yüksək səviyyədə inkişaf edir

Dəyirmi masa ilə bağlı təəssüratlarını "Yeni Azərbaycan" qəzeti ilə bölüşən Böyük Azərbaycan Partiyasının sədri, Milli Məclisin deputatı Elşad Musayev bildirib ki, təşkil olunan dəyirmi masa ölkəmizdə formalaşan yeni siyasi konfiqurasiya çərçivəsində aparılan siyasi dialoqun yeni bir mərhələsi və təntənəsi kimi qəbul olunmalıdır. Partiya sədri vurğulayıb ki, uzun müddət Azərbaycanda siyasi qüvvələr ilə hakimiyyət arasında bəzi məqamlarda hətta ciddi qarşıdurmalar yaşanıb, qarşılıqlı şəkildə qəbul edilməmə kimi problemlər mövcud olub: "Hətta elə bir dövr vardı ki, siyasi tərəflər arasında görüşlər, danışıqlar xarici qüvvələrin vasitəçiliyi ilə baş tuturdu. Təbii ki, ölkəmizə bu və ya digər şəkildə təsir göstərmək istəyən xarici qüvvələr bu kimi hallardan öz maraqları üçün istifadə edirdilər, həmin görüşlərin kontekstini öz mənafelərinə uyğunlaşdırmağa çalışırdılar. Nəhayətdə buna son qoyuldu və hesab edirəm ki, beş il öncə atılan bu addım, yeni siyasi konfiqurasiyanın əsasının qoyulması özünün müsbət tərəfləri ilə seçildi. Cənab Prezidentin siyasi iradəsi nəticəsində hakimiyyətlə müxalifət arasında dialoq başladı. Mən deyərdim ki, vaxtilə bu prosesə mane olan bəzi insanlar da prosesdən uzaqlaşdırıldı, Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi formalaşdırıldı. Bu şöbə siyasi partiyalarla kommunikasiyaların qurulmasına ciddi töhfələr verdilər. Nəticə etibarı ilə hələ 2020-ci ildə 44 günlük müharibə dövründə müxalifətlə iqtidarın vahid mövqedən çıxış etməsinin şahidi olduq, münasibətlər yaxşılaşdı".

E.Musayev qeyd edib ki, siyasi partiyaların böyük əksəriyyəti münasibətlərin yeni məcrada inkişaf etməsinə öz töhfələrini verirlər. Görüşlər keçirilir, müzakirələr aparılır. Son görüş isə bir daha onu göstərdi ki, Azərbaycanda siyasi qüvvələrlə hakimiyyət arasında dialoq mühiti çox yüksək səviyyədə inkişaf edir. "Təbii ki, bir çox problemlərimiz var, qarşıda mühüm vəziflər, çağırışlar mövcuddur. Bu çağırışlara operativ və keyfiyyətli şəkildə cavab vermək üçün mütləq siyasi dialoq olmalıdır. Keçirilən tədbirdə mən də çıxış etdim. Hər kəs narahat olduğu məsələlərlə bağlı fikirlərini bölüşdü və heç kimə maneçilik yaradılmadı. Hesab edirəm ki, bu yanaşmalar davam etməlidir. Hakimiyyət də, müxalifət də bundan müsbət mənada nəticə çıxarmalıdır. Ölkədə normal, sivil siyasi münasibətlərin varlığı zəruri şərtdir. Bu münasibətlərin güclənməsi üçün isə belə tədbirlərin böyük əhəmiyyəti var", - deyə BAP sədri qeyd edib.



## Natiq Cəfərli: Özünə siyasətçi deyən, siyasi partiya rəhbəri olan şəxs görüşdən və dialoqdan yayınmamalı, qaçmamaılıdır

REAL Partiyası Siyasi Komitəsinin sədri Natiq Cəfərli Azərbaycanda yeni siyasi konfiqurasiya çərçivəsində iqtidar-müxalifət dialoqunun olmasını, görüşlərin keçirilməsini, müzakirələrin təşkilini kifayət qədər pozitiv hal adlandırıb. O qeyd edib ki, bu yaxşı bir tendensiyadır və artıq analoji istiqamətdə davam edən ənənə yüksək dəyərləndirilməlidir: "Fevralın 25-də təşkil olunan dəyirmi masa da bu ənənənin davamı kimi yadda qaldı. Müxtəlif məsələlər müzakirə edildi, müxtəlif dövlət qurumlarının nümayəndələrinin çıxışları oldu. Tədbir kifayət ədər məlumatlandırıcı bir mahiyyət kəsb edirdi. Dövlət orqanlarının nümayəndələri ilə yanaşı, siyasi partiyaların nümayəndələrinin də çıxışları oldu və mənim də qısa bir münasibətim oldu. Belə görüşlərin təşkili ilə bağlı öz təşəkkürümü çatdırdım, bu ənənəninin davamlı olmasını dilədim. Həm də gələcəkdə görüşlərin konkret məsələlər üzrə keçirilməsini təklif etdik. Bu, daha effektiv ola bilər. Hörmətli Ədalət Vəliyev də bu təklifə pozitiv yanaşma nümayiş etdirdi".

N.Cəfərli deyib ki, siyasi dialoq məsələsi Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi dövründə - 2020-ci ildə başlayıb. Marginal qrupları çıxmaq şərtilə Azərbaycanda demək olar ki, bütün siyasi partiyalar dövlət maraqları, ərazi bütövlüyümüz və suverenliyimiz müstəvisində eyni mövqedən çıxış edib. "Yaxşı xatırlayıram ki, bu, müxtəlif ölkələrin beyin mərkəzlərində, mediasında şok effekti yaratmışdı. Bu kimi məsələlərdə vahid bir cəbhənin olduğunu hamı gördü. Hansısa bir kənar müdaxilənin mümkünsüzlüyü ortaya çıxdı. Müxalifətin iqtidarla müxtəlif məsələlərə fərqli yanaşmamız ola bilər və bu, normaldır. Amma dövlət maraqları, suverenliyin qorunması məsələlərində fərqli mövqenin olması mümkün deyil. Dövlət məsələsi siyasi partiyaların fövqündə dayanır. Belə bir təməlin üzərində yaranan yeni münasibətlər sonradan sağlam müzakirələr üçün bir qapı açdı. Bu, müxalifət ilə iqtidarın düşmən deyil, rəqib olduğunu və normal şəkildə münasibətlər qura bildiyini sübut etdi", - deyən REAL rəhbəri dialoqdan yayınan siyasi partiyaları və onların rəhbərlərini anlamadığını önə çəkib: "Özünə siyasətçi deyən, siyasi partiya rəhbəri olan şəxs görüşdən və dialoqdan yayınmamalı, qaçmamalıdır. Bu çox absurd səslənir. Çünki siyasətçinin işi görüşmək və danışmaqdır. Hətta kəskin fikir ayrılığının olduğu mövzularda belə siyasətin əsas aləti danışıqlar yolu ilə o kəskin fikir ayrılığını ortaq məxrəcə gətirməkdir. Danışmaqdan, görüşməkdən, müzakirlərdən, seçkidən imtina edən siyasi partiya başqa nə işlə məşğul olmalıdır? Getsinlər onda kənd təsərrüfatı ilə məşğul olsunlar ki, heç olmasa cəmiyyətə, xalqa bir xeyir versinlər. O tipli adamların və marginal qrupların gördüyü iş siyasət deyil".



## Musa Ağayev: Biz bir yumruğa çevrilib kənar təsirlərə qarşı əsaslı reaksiya formalaşdırmalıyıq

Yeni Zaman Partiyasının sədri Musa Ağayev də dialoq mühitini yüksək qiymətləndirib və iqtidar-müxalifət münasibətlərinin sivil qaydada, dəyirmi masa arxasında müzakirə əsasında inkişafını əhəmiyyətli sayıb. M.Ağayev qeyd edib ki, sonuncu dəyirmi masa da daxil olmaqla belə görüşlərdə bütün siyasi partiya təmsilçilərinə öz fikirlərini açıq şəkildə ifadə etmək üçün şərait yaradılıb: "Bu öz nəticəsini verir. Dialoq çox gözəl bir ideyadır və vacibdir. Hətta qarşıdakı dövrdə bu proses inkişaf etdirilməlidir. Perspektivdə xüsusilə daxili məsələlərə diqqət daha çox ayrılmalıdır, dialoqun konkret mövzuları müəyyənləşdirilməlidir. Bu gün dünyada yeni təhlükəsizlik arxitekturası formalaşır, yeni siyasi nizam yaranır. Dünya olduqca çətin və gərgin mərhələdən keçir. Bizim regionda da olduqca mühüm siyasi prloseslər gedir, sülh məsələsi gündəmdədir. Bu mənada Azərbaycanda həm daxili, həm də xarici təhdidlərin zərərsizləşdirilməsi üçün mütləq ümummilli məsələlərdə birlik, həmrəylik nümayiş etdirilməlidir. Biz daxilimizdə bir yumruğa çevrilib çətinliklərə, kənar təsirlərə qarşı əsaslı reaksiya formalaşdırmalıyıq. Bu baxımdan iqtidar- müxalifətin dialoquna böyük ehtiyac var".

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin və şöbə müdiri Ədalət Vəliyevin bu dəyirmi masaların təşkilində böyük zəhmətinin olduğunu söyləyən M.Ağayev prosesin belə davam edəcəyinə əminliyini ifadə edib. "Dialoqdan yayınmaq isə düzgün addım deyil. Hətta deyərdim ki, dialoqdan yayınmaq birmənalı şəkildə yolverilməzdir. Müxalifət partiyası olaraq bizim özümüzün də bəzi məsələlərə fərqli baxışımız var. Amma bütün məsələlər müzakirə əsasında öz həllini tapmalıdır. Necə olur ki, AXCP üzvləri vaxtilə parlamentə seçiləndə hər şey yaxşı idi, indi parlamentə seçilməyəndə hər şey pisdir?! Müxalifət ağa qara demək deyil. Beləələri özləri özlərini nüfuzdan salırlar", - deyə M.Ağayev əlavə edib.

*Pərviz SADAYOĞLU*

# Tarixi-mədəni irsimizin qorunması istiqamətində...

## Mühüm layihələr hazırlanır!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə hazırlanmışdır**

Mədəniyyət Nazirliyi tərəfindən regionlardakı tarixi-mədəni irsin bərpa və konservasiyası üzrə layihələrin hazırlanması ilə bağlı iş aparılır. Bu barədə nazirlikdən məlumat verilib. Bildirilib ki, bu istiqamətdə bir sıra abidənin bərpa layihələrinin hazırlanması ilə bağlı proses davam etdirilir.

Bildirilib ki, nazirlik həm də Heydər Əliyev Fondu tərəfindən azad olunmuş ərazilərdəki bərpa-konservasiya istiqamətində işlər görür: "Ötən müddətdə Ağdam şəhərində İmarət Kompleksi Mədəniyyət Nazirliyi tərəfindən bərpa olunub. Eyni zamanda Xankəndi şəhərində yerləşən Dövlət Dram Teatrı binasının bərpa layihəsi hazırlanıb. Xocalı rayonundakı Əsgəran qala-kompleksinin bərpa layihəsinin hazırlanması üzrə işlər davam etdirilir".

Heydər Əliyev Fondu tərəfindən Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa, Mamayı, Saatlı məscidləri, eləcə də Ağdam Cümə məscidi bərpa olunub: "Zəngilanda tarixi məscidin qalıqları konservasiya edilib və bu ərazidə yeni məscid inşa olunub, Şuşada Çöl Qala məscidinin, Ağdamda Qiyaslı, Xocalıda Malıbəyli məscidlərinin bərpası isə davam etdirilir. Bundan əlavə, fond tərəfindən Üzeyir Hacıbəylinin Şuşadakı heykəli, Molla Pənah Vaqifin büstü, Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyi, Mehmandarovların malikanə kompleksi, Xalça Muzeyinin filialı, Şirin su hamamı bərpa edilib".



### 402 tarixi və memarlıq obyekti aşkar edilib

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdə Mədəniyyət Nazirliyi tərəfindən 402 tarixi, memarlıq və ya arxeoloji əlamətləri olan yeni obyekt aşkar edilib. Bildirilib ki, adıçəkilən ərazilərdə tarixi-mədəni abidələrin qeydiyyatı, inventarlaşdırılması, bərpa və konservasiyası istiqamətində sistemli iş aparılır: "Mədəniyyət Nazirliyi tərəfindən 705 tarix və mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb. İnventarlaşdırma işləri zamanı sahə tədqiqatı aparılıb. Abidələrin elektron xəritələri hazırlanıb, keyfiyyətli fotofiksasiya və dron çəkilişləri həyata keçirilib, arxiv sənədləri və digər mənbələr araşdırılıb".

Azad olunmuş ərazilər üzrə dövlət mühafizəsindəki 705 abidənin bir qismində inventarlaşdırma işlərinin mina təhlükəsi səbəbindən istənilən səviyyədə aparıla bilmədiyi də qeyd olunub: "Ərazilər minalardan təmizləndikcə arxeoloji abidələrə dair arxiv materialları əsasında inventarlaşdırma da davam etdirilir".

Eyni zamanda vurğulanıb ki, inventarlaşdırılma əsasında işğaldan azad edilmiş ərazilərdə yerləşən daşınmaz tarix-mədəniyyət abidələrinin "Google Earth" proqramı əsasında elektron xəritələri tərtib olunub: "Əldə olunmuş məlumatlar dövlət qurumlarının məlumatlarının inteqrasiyası əsasında işğaldan azad olunmuş ərazilərdə informasiyaların vahid rəqəmsal məkanda toplanılması, emalı və səmərəli istifadəsinin təmin edilməsi məqsədilə Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən yaradılmış Qarabağ Rəqəmsal Geoinformasiya sisteminə daxil edilib".

### Ciddi işlər həyata keçirilir

Mədəniyyət naziri Adil Kərimlinin sözlərinə görə, azad olunmuş ərazilərdə bütövlükdə mədəniyyət infrastrukturunun bərpası istiqamətində də ciddi işlər həyata keçirilir: "Qarabağda və Şərqi Zəngəzurda bir çox tarixi abidələr bərpa olunmaqdadır. Sonuncu dəfə bərpa etdiyimiz layihə dövlət başçısının açılışını etdiyi Ağdamda Pənahəli xanın imarət kompleksi olub".

Nazir qeyd edib ki, Xocalı şəhərindəki Xocalı Memorial Kompleksinin layihəsinin təməlqoyması həyata keçirilib: "Layihə artıq təsdiq edilib və Heydər Əliyev Fondu tərəfindən icrası həyata keçiriləcək".

### Mədəniyyət sahəsində ciddi islahatlar keçirilir

Nazir həmçinin bildirib ki, mədəniyyət sahəsində ciddi islahatlar həyata keçirilir. Onun sözlərinə görə, bu sahədə ən vacib məsələlərdən biri də məhz kadr islahatlarıdır: "Kadr islahatları mədəniyyət sahəsində idarəçilərin ön plana çəkilməsi, xüsusilə də idarəetmə sahəsində olan boşluqların aradan qaldırılması üçün müvafiq peşəkar kadrlar hazırlanaraq vəzifələrə gətirilməsi üçündür. Eyni zamanda ən vacib sahələrimizdən biri xüsusilə də pedaqoji və mədəniyyət sahəsində sistemimizdə nəzərdə tutulmuş musiqi, incəsənət məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsidir".

*Yeganə BAYRAMOVA*

# QHT-lər Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadlarına dair topoqrafik və kosmik görüntülü rəqəmsal xəritə hazırlayıb



Dünən “Environmental Protection First” (EPF) Koalisiyası Cənubi Qafqazın və Xəzər dənizinin ekologiyasını zəhərləyən Ermənistanın dağ-mədən sənayesi müəssisələri barədə interaktiv rəqəmsal xəritəni ictimaiyyətə təqdim edib. İnfobank mahiyyətli rəqəmsal xəritə Azərbaycan, ingilis və erməni dillərində hazırlanıb.

AZƏRTAC xəbər verir ki, rəqəmsal xəritəni tərtib edən Koalisiyaya üzv olan “Azərbaycan Kartoqrafları” İctimai Birliyinin sədri Müqabil Bayramov bu unikal resurs üzərində peşəkar komandanın bir ildən çox fəal iş apardığını bildirib. O, “Environmental Protection First” Koalisiyasının 2024-cü ildə Azərbaycan, ingilis və erməni dillərində “Ermənistan Respublikasının mineral xammal resursları” adlı xəritə də hazırladığını, indiki Coğrafi İnformasiya Sistemləri (CİS) proqramlarına əsaslanan rəqəmsal xəritənin həmin xəritənin bazasında ərsəyə gətirildiyini, lakin materialların xeyli zənginləşdirildiyini diqqətə çatdırıb. Müəllif onu da əlavə edib ki, interaktiv xəritədə faydalı qazıntıların növləri, yerləşdiyi ərazilər, əsas çirkləndirici müəssisələr, onların hansı maddələrlə hansı çayları çirkləndirməsi barədə məlumatlar təqdim olunur. “Ermənistanda dövlət qurumları bu barədə susmağa üstünlük verir, amma biz xəritələri həm də erməni dilində hazırlayırıq ki, yerli ictimaiyyət ondan gizlədilən ekoloji cinayətlərdən agah olsun. Peşəkar kartoqrafik əsər olan xəritə müasir “WGS-84” koordinat sistemində yığılıb, klikləmə üsulu ilə obyektlər haqqında ətraflı məlumat almaq mümkündür. Xəritənin altlığı həm topoqrafik, həm də kosmik görüntülüdür. İstehsal müəssisələri haqqında məlumatlar kosmik təsvirlərin analizi nəticəsində alınıb. Xəritədə xammal emalı müəssisələrinin, istismar edən şirkətlərin adları, müəssisələrin təyinatı, ətraf mühitə təsirləri haqqında məlumatlar, foto və videolar verilib”, - deyə o əlavə edib.

“Environmental Protection First” (EPF) Koalisiyasının həmtəsisçisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) yanında İctimai Şuranın sədri Amin Məmmədov qeyd edib ki, Ermənistanın və bu ölkədə işləyən xarici şirkətlərin dünyada qəbul olunmuş ekoloji norma və standartlar gözlənilmədən apardıqları ekosid fəaliyyəti dərhal dayandırılmalıdır, Ermənistanın bütün bölgəni zəhərləməsinin qarşısı alınmalıdır. Ermənistan əhalisi və region ölkələrinin ictimaiyyəti onlardan gizlədilənlər barədə mütləq xəbər tutmalıdır: “Azərbaycan QHT-lərinin Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadlarına qarşı açdığı cəbhə dünyanın ən müxtəlif ölkələrindəki ekoloji təşkilatlar tərəfindən alqışlanıb. Biz davamlı dəstək mesajları alırıq. 2024-cü ilin mayında Keniyada BMT-nin Vətəndaş Cəmiyyəti Forumunda, sentyabrında ABŞ-da BMT-nin Gələcəyin Sammiti toplantısında, noyabrında COP29-da biz bu barədə geniş iş aparmışıq. Ermənistanın hərəkətlərindən bir çox ekofəallar və beynəlxalq ekspertlər dəhşətə gəlib”. Amin Məmmədov artıq İran mediasında da mövzunun müzakirəsinin başlandığını deyib: “Bugünlərdə İranın ekoloji problemlər üzrə ixtisaslaşmış nəşri olan “Pəyam-e ma” qəzeti Araz çayının çirklənməsi ilə bağlı geniş hesabat dərc edib. Hesabatda açıq yazılır ki, Araz çayı 59 ağır metalla yüksək dərəcədə çirkləndirilib. Suyu çirkləndirən əsas elementlər alüminium, arsen, mis, manqan, molibden, qurğuşun və vanadiumdur, bunlar əsasən Ermənistanın dağ-mədən müəssisələrindən qaynaqlanır”.

A.Məmmədov xatırladıb ki, 2024-cü ildə Tehranda keçirilən “Mədən sənayesində davamlı inkişaf” adlı konfransdakı çıxışında İranın Mədən Evinin sədri Məhəmmədrza Bəhramən Ermənistanın mis mədənlərinin tullantı sularının Araz çayına axıdıldığını, amma İran hökumətinin buna göz yumduğunu dilə gətirib.

“Environmental Protection First” (EPF) Koalisiyasının həmtəsisçisi, Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü, deputat Pərvanə Vəliyeva bəyan edib ki, Ermənistan özünün dağmədən müəssisələrində beynəlxalq qurumlarla, xarici QHT-lərlə birgə ekoloji monitorinqlər keçirmək üçün Azərbaycan QHT-lərinə şərait yaratmalıdır: “Ermənistanın baş naziri Nikol Paşinyan bu mövzuda Azərbaycan ictimaiyyətinin, dünyanın onlarla ölkəsindən olan vətəndaş cəmiyyəti təmsilçilərinin ona ünvanlanan müraciətlərini 2 ilə yaxındır ki, cavabsız qoyub. Hələ də Ermənistanın dağmədən müəssisələri Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Sənədlərini gizlədir, ictimailəşdirməkdən imtina edir”.

Pərvanə Vəliyeva ictimaiyyətə təqdim edilən interaktiv rəqəmsal xəritədə Azərbaycan xalqına məxsus milli toponimlərin olduğu kimi verilməsini, hətta yer adları ilə bağlı tarixi xəritələrə istinadları yüksək qiymətləndirib, bunun Qərbi Azərbaycan yaddaşı prizmasından da mühüm əhəmiyyətini vurğulayıb.

“Environmental Protection First” (EPF) Koalisiyasının həmtəsisçisi Sabit Bağırov təklif edib ki, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü öz Standartında ekoloji normaların tətbiqinə dair meyarları gücləndirməlidir: “Belə olsa, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün üzvü olan Ermənistan bu sahədə daha şəffaf və məsuliyyətli olar. BMT-nin Trans-sərhəd su axarlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında Konvensiyası üzrə Katibliyi də bu problemlə bağlı konkret mövqe ortaya qoymalıdır. Biz onlarla da görüşməyə hazırıq. Cünki Ermənistan bu Konvensiyaya qoşulmaqdan qaçır”.

Qeyd edək ki, “Environmental Protection First” (EPF) Koalisiyasının hazırladığı interaktiv rəqəmsal xəritə yaxın günlərdə Koalisiyanın saytında yerləşdiriləcək.

# Erməni təbliğatının “sınıq təkəri”...

## Zatulin öz ampluasında

Erməni təbliğatının “sınıq təkərlərindən” biri sayılan Konstantin Zatulin yenidən öz ampluasına “sadiq” qalıb. Erməni lobbisinin “yemi” ilə yemlənən bu şəxs növbəti dəfə Azərbaycana qarşı şər-böhtan, yalan və əsassız fikirlər səsləndirib. Dövlət Dumasının MDB ölkələri ilə iş komitəsi sədrinin birinci müavini statusunu daşıyan Konstantin Zatulin MDB Ölkələri İnstitutunun “Lazarev klubu” ilə birgə Moskvada təşkil etdiyi dəyirmi masada Azərbaycanın əleyhinə tarixi saxtalaşdıran, heç bir sərhəd tanımadan yalan və böhtanlar üzərində qurulmuş çıxış edib. Zatulin hərbi cinayətlərdə ittiham olunan erməni əsilli şəxslərin Bakıda keçirilən məhkəmə prosesi ilə bağlı əsassız fikirlər səsləndirib və erməni lobbisinin verdiyi pulların “əvəzini qaytarmaq” üçün dəridən-qabıqdan çıxıb.



**Zatulinin sağalmaz “xəstəliyi”...**

Zatulinin kimliyi Azərbaycan oxucusuna yaxşı bəllədir - illərin “erməni sevdalısı” olan, sonradan isə rəsmi İrəvan tərəfindən “qara siyahıya” tuş gələn Zatulin hər dəfə əlinə düşən fürsətdən yaralanmaqda, Azərbaycanın maraqlarına qarşı “cəbhə” almaqda və yalan danışmaqda “pərgardır”. İrəvana girişi qadağan olunan Zatulin Moskvada imkan tapan kimi erməni lobbisinin verdiyi pulların “haqqını qaytarır”. Amma necə? O, “Qarabağ rəhbərliyi”nin mühakimə olunmasını həm “şəxsi revanş”, həm də “repressiya” adlandırır.

Qeyd edək ki, bu kimi “terminlərdən” istifadə etməsi Zatulini elə birinci addımdaca ələ verir. Revanşizm və repressiya həmin ittiham edilən şəxslərə aid oluna bilməz - həmin şəxslər konkret faktlar üzrə məsuliyyətə cəlb olunublar və hətta onların əksəriyyəti törətdikləri cinayətləri artıq danışmağa, etiraf etməyə başlayıb.

Revanşizm xəstəliyi isə Zatulin və onu “körükləyən” zümrənin tutulduğu mərəzdir - Azərbaycanın haqqa, ədalətə söykəndiyi mövqeyini hədəfə alanlar, 30 ilə yaxın işğal altında qalmış ərazilərin azad olunması ilə barışmayanlar, zatulinlər və ona himayədarlıq edənlər artıq anlayırlar ki, “qatar gedib”. Sadəcə boş taftalogiya və danışıq qalıb.

İkinci bir tərəfdən, istər istintaq dövründə hətta Zatulindən də üstün ermənipərəst şəbəkələr bir sıra yollarla Azərbaycanın iradəsinə təsir etməyə çalışıb, bu hərbi cinayətkarların bəzilərinin azad edilməsinə nail olmaq istəyib. Fərqli dövlətlərin parlamentləri bu barədə “dinləmələr” təşkil edib, “tövsiyələr” təqdim edib, hətta təhdid ritorikası ilə “qətnamə” belə qəbul edib. Prosesə bir sıra ermənipərəst şəbəkə üzvləri, hətta beynəlxalq PR şirkətləri belə “qoşulmuşdu”. Nəticədə isə, Azərbaycana qarşı aparılan şərböhtan kampaniyası onların özlərinin ifşasına yol açdı. Erməni lobbisinin “kuklası”na çevrilmiş Zatulin kimilərini dövriyyəyə salmaqla uğur əldə edəcəklərini düşünənlər əslində bu başdan məğlubiyyətlərini elan və etiraf etmiş olurlar. Çünki alət kimi istifadə edilən həmin şəxslərin kimliyi, reputasiyası, erməni puluna alət olmaları bütün ştrixləri ilə ortadadır.

**Aldığı pulların haqqını ödəmək üçün...**

Zatulin özü özünü yalanlarına o qədər “inandırıb” kimi, cəmisi bir neçə il öncəyə söykənən hadisədləri belə təhrif edir. Bakıda ədalət məhkəməsi qarşısında dayanan müttəhimlərin guya “Minsk qrupu çərçivəsində ümumi dinc tənzimlənmə prosesində uzun illər ərzində Azərbaycan rəhbərliyinin danışıqlarda tərəfdaş olduğunu” deyir. Bu artıq yalanın, hədyanın ən son həddidir - bütün dünya bilir ki, həmin şəxslər nəinki, heç bir zaman Azərbaycan dövlətinin danışdığı “tərəf” olmayıb, hətta onların törətdikləri cinayətlər bütün zamanlarda ən uca səslə səsləndirilib. Necə ola bilər ki, hətta Ermənistanın özünün tanımadığı bu şəxsləri Azərbaycan “qarşısına oturdub” onlarla danışa?

Davamında isə Zatulin yenə də aldığı pulların “haqqını ödəmək üçün” ənənəvi yalanlara əl atır - erməni xalqının “qədimliyi”, uydurma erməni tarixi, onların Qafqazda “tarixən varlığı” kimi heç bir əsası olmayan fikirləri Zatulini gülüş obyektinə çevirir. Azərbaycanın tarixi və ayrılmaz hissəsi olan Qarabağın tarixi və mədəniyyətinə aid bu və digər abidələrin azərbaycanlılara aid olmadığını ağ yalanla danışan Zatulin xalqımızın tarixi irsini utanmadan və həyasızcasına erməni “adına” çıxır.

**Məsuliyyətsizlik sindromu...**

Əsas məsələlərdən biri isə, Zatulinin Rusiya Dövlət Dumasında tutduğu vəzifə ilə bağlıdır - bu məsuliyyətsiz deputatın danışdığı hədyanlar həm də təmsil olunduğu Rusiya dövlətinin qanunverici orqanının məsuliyyətinə çevrilir. Necə ki, Bakıda məhkəməsi keçirilənlər haqqında çıxışa başlayarkən “Biz Rusiyada - mən Rusiya Dövlət Dumasının deputatıyam - buna necə yanaşmalıyıq? Təbii ki, repressiya kimi” sözləri işlədən Zatulinin fikirləri birmənalı qarşılana bilməz. Niyə Dumanın rəhbərləri Zatulinə bu kimi qeyri-hüquqi, dövlətlərarası münasibətlərə xələl gətirən, əsassız fikirlər danışdığı üçün hansısa bir irad bildirmirlər? Ən azından çıxıb Zatulinin bu məsuliyyətsiz davranışının Dumanın və ya Rusiyanın mövqeyi ilə paralellik daşımadığını bəyan etməlidirlər. Belə olanda, bu, həm də onu deməyə əsas verir ki, Rusiyanın bəzi dairələri Zatulinin ortaya düşməsində, Azərbaycana qarşı yalan və əsassız fikirlər söyləməsində maraqlıdır. Çünki Zatulin Dumanın adından danışdığını iddia edir

**Azər Badamov: Qəbulolunmaz haldır ki...**

Məsələ ilə bağlı fikirlərini “Yeni Azərbaycan”a bölüşən Milli Məclisin deputatı Azər Badamov bildirib ki, Konstantin Zatulinin erməni maraqlarına xidmət etməsinə şübhə yoxdur. Onun Bakıda məhkəmə qarşısında dayanan şəxslərlə bağlı söylədiyi fikirlər isə ağ yalandır: “1990-cı illərin əvvəlindən etibarən Qarabağ məsələsi ilə bağlı Ermənistanla Azərbaycan arasında gedən danışıqlar prosesində vasitəçi qismdə iştirakçı olan ATƏT-in Minsk qrupu bu proseslərdə ən real şahiddir. Əvvəl-əvvəl Ermənistan rəhbərliyi separatçı xunta üzvlərinin bu danışıqlarda “tərəf” kimi iştirakına israr etsə də, Azərbaycanın qətiyyəti nəticəsində belə bir hal yaşanmadı. Onlar konkret cinayət faktlarında günahlandırılan şəxslərdirlər və bu gün Azərbaycanın ədalət məhkəməsi qarşısında törətdikləri qeyri-qanuni əməllərə görə cavab verirlər”.

A.Badamov Zatulinin ermənilərin Qafqazda “ən qədim xalq” olması ilə bağlı danışdığı yalanların ənənəvi ssenaridən kənara çıxmadığını söyləyib. Millət vəkili bildirib ki, illərdir ermənilərin uyduraraq danışdıqları bu yalanlar onları dünya miqyasında gülüş hədəfinə çevirib. “Heç bir tarixi əsasa, heç bir fakta söykənmədən danışılan bu fikirlər uydurmalardan ibarətdir. Ermənilər tərəfindən ələ alınmış Zatulin kimilər isə pul qarşılığında bu yalanların yayılmasına vəsilə olmağa çalışırlar. Amma bu onlara heç də nüfuz qazandırmır, əksinə, onların qeyri-ciddi obrazını daha da açıq şəkildə göstərir. Qəbulolunmaz haldır ki, Zatulinin danışdığı bu yalanlar Rusiya Dövlət Duması tərəfindən sükutla qarşılanır. Halbuki Zatulin bu kimi fikirlər açıqlayan zaman Rusiya Dövlət Dumasının üzvü olduğunu, bu statusla çıxış etdiyini bildirir. Bu şəxs başqa bir dövlətə, xüsusilə qonşu dövlətə qarşı yalan iddialar səsləndirir - bu isə özlüyündə hüquqi məsuliyyət yaradır. Rusiya Dövlət Duması bununla bağlı mütləq münasibət bildirməlidir. Zatulinin yalanlarının sükutla müşayiət olunması Dumanı da pis vəziyyətdə qoyur - hər kəsin erməni puluna danışan birisi kimi tanıdığı Zatulinə görə, Rusiya dövləti özünün imicinə zərbə vurmamalıdır”.

***P.İSMAYILOV***

# Kilsədə qurulan “qisas müharibəsi” planları...

Bütün səmavi dinlərin müqəddəs kitablarında sülhə, barışığa, birgəyaşayışa çağırış edilir, dünyaya əmin-amanlıq arzulanır. Tarixdən bəllidir ki, öz icmalarında yüksək nüfuz sahibi olan ayrı-ayrı din xadimləri də zaman-zaman müharibələrin qarşısının alınmasında müstəsna rol oynayıblar.

Ancaq belə görünür ki, erməni kilsəsi və erməni din xadimləri tamamilə fərqli xislətə malikdirlər. Bu qənaəti təsadüfən ifadə etmirik. Son 30 ilin tarixinə nəzər saldıqda görürük ki, kilsə, o cümlədən də ermənilərin katalikosu II Qaregin bir qayda olaraq Ermənistanın dövlət siyasətinə mənfi yön verib, cəmiyyətdə Türkofobiya, Azərbaycanofobiya meyllərinin güclənməsində, irqçilik, etnik-dini dözümsüzlük təbliğatının aparılmasında həmişə öndə olub.

**Katalikos adına qara ləkə - iki bədnam çağırış**

Katalikos II Qaregin heç bir halda din xadiminə, onun cəmiyyətdəki missiyasına uyğun gəlməyən belə insanlıqdan, humanizmdən uzaq, pis niyyətli fəaliyyətini hazırda da davam etdirir. Son vaxtlarda katalikosdan gələn açıqlamalar və erməni xalqına çağırışlar onun hansı xəbis niyyətdə olduğunu əyani şəkildə təsdiqləyir. Bir qədər bundan əvvəl o, İrəvanda Birinci və İkinci Qarabağ müharibələrinin qurbanlarının dəfn olunduqları qəbirstanlıqda keçirilən anım tədbirindən sonra verdiyi açıqlamada erməni cəmiyyətinin qarşısında dayanan “vacib məsələlərə” diqqət çəkdi. Katalikos din xadimi olduğunu yaddan çıxararaq “Ermənistanın üzləşdiyi ən mürəkkəb təhlükəsizlik çağırışları şəraitində ordunu daha da gücləndirməyə zərurət olduğunu” özüsayağı əsaslandırmağa çalışdı.

Katalikos II Qaregin yenə özünün qaragüruh ampluasındadır. Bu günlərdə o, erməni xalqını yenidən müharibəyə səsləyib. Bildirib ki, Ermənistan guya təhlükədədir və hər an Azərbaycan onu işğal edə bilər. “Vətən təhlükədə olanda bütün xalq mübarizə bayrağı qaldırmalıdır. Bu gün həmin gündür”, - deyə II Qaregin söyləyib.

Adam nə qədər insanlıq hissini itirməlidir ki, anım tədbirində, müharibələrdə həyatlarını itirən gənclərin taleyinə, anaların göz yaşlarına ironiya edərək yenidən müharibə çağırışını dilə gətirsin. Qəlbindən mərhəməti bütünlüklə çıxarıb ora nifrət, qisasçılıq hissi yükləyən birisini səmavi dinin daşıyıcısı adlandırmaq mümkündürmü? Əsla! Bu, rəzillikdir, din adına, katalikos adına bir ləkədir.

**İndi yeni müharibəyə deyil, sülhə çağırış məqamıdır**

Katalikosun təkcə son vaxtlarda verdiyi iki bəyanat onun revanşistlərlə eyni cəbhədə yer aldığını təsdiqləyir. Əgər II Qaregin sözün əsl mənasında din xadimi olsaydı, xalqını, təmsil etdiyi dövlətin rəhbərliyini müharibəyə deyil, sülhə səsləyərdi. O anlamalıdır ki, indi yeni müharibəyə deyil, məhz sülhə çağırış məqamıdır. Cənubi Qafqaz coğrafiyası son üç onillik ərzində bir sıra ziddiyyətli proseslərdən keçib. Xüsusilə də Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycana qarşı başladığı elan olunmamış işğalçılıq müharibəsi regionumuzun təhlükəsizliyi üçün böyük təhdidlər yaradıb. Azərbaycan 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı parlaq qələbələr sayəsində bu təhlükələri aradan qaldırmaqla tamam fərqli məzmunda yeni reallıqlar yaradıb. Hazırda region qarşıdurmalar səhifəsini birdəfəlik bağlamağa, potensialı əməkdaşlığa, davamlı sülhün və təhlükəsizliyin təmin edilməsinə yönəltməyə heç vaxt olmadığı qədər daha yaxındır. Azərbaycan da məhz buna can atır. Sülhə nail olmaq ölkəmizin xoşməramlı niyyətidir və həyata keçirdiyi siyasətin əsas məqsədlərindən biridir.

Müharibə başa çatdıqdan sonra ötən dörd il ərzində sülh sazişinin imzalanmamasının bütün məsuliyyəti isə bilavasitə Ermənistanın üzərinə düşür. Son vaxtlarda Ermənistan sürətlə silahlanma yolu tutub. Hərbi büdcə artırılır və Fransadan, Hindistandan hücum silahları alınır, keçmiş döyüşçülər, hətta yaşlı insanlar belə səfərbərliyə alınırlar. Sual olunur: Sülhə hazır olduğunu deyən ölkə bu müharibə hazırlıqlarını niyə və kimə qarşı aparır? Əlbəttə ki, hədəf birinci növbədə Azərbaycandır.

**Ermənilərin taleyi ilə oynayan trio - kilsə öndə gəlir**



İndidiki reallıqlar şəraitində katalikosun “Yeni müstəqil dövlətçiliyimizin və xalqımızın hüquqlarının müdafiəsi kimi müqəddəs işdə Ermənistan ordusunun rolu və xidmətləri əvəzsizdir. Bu gün ölkəmizin üzləşdiyi ən mürəkkəb təhlükəsizlik çağırışları qarşısında ordumuzu daha da gücləndirmək lazımdır ki, əsgərlərimiz müqəddəs milli müdafiə missiyasını yüksək döyüş qabiliyyəti və sarsılmaz ruhla davam etdirə bilsinlər” deməsi birmənalı qarşılana bilməz. Onun söylədiyi fikirlərlə Ermənistandakı müharibə partiyasının, xaricdən revanşistlərə hərtərəfli dəstək göstərən lobbi dairələrinin çağırışları arasında hansısa bir fərq yoxdur. Belə çıxır ki, məğlub Ermənistanın sülhyaratma prosesi ilə bir araya sığmayan siyasəti trio qüvvə tərəfindən yönləndirilir. Üçbucaqda yer alan daxildəki revanşistlər davamlı olaraq hakimiyyəti təzyiq altında saxlamağa çalışırlar. Öz növbəsində sülhə meyilli olmayan hakimiyyət də əksər hallarda revanşistlərin ideyalarını təkrarlamaqla reallıqda sülhdən qaçır və manipulyasiyalarla vaxtı uzadır. Triodа yer alan lobbi dairələri sülh prosesindən yayınan Ermənistana Fransa kimi ölkələrdə, Avropa Şurası Parlament Assambleyası (AŞPA) kimi təsisatlarda “beynəlxalq dəstək” kampaniyaları təşkil etməklə, silah tədarükündə yardımçı olmaqla məşğuldurlar. Qaragüruh planların həyata keçirilməsində kilsənin üzərinə ən ağır yük düşür. Bilirik ki, artıq tarixdə qalmış Qarabağ probleminin davam etdiyi onilliklər ərzində Ermənistanın törətdiyi dəhşətli müharibə cinayətlərinin “xeyir-duası” məhz kilsələrdə keşişlər və katalikos tərəfindən verilib. Kilsə, keşişlər və katalikos indi də eyni roldadırlar. II Qareginin son açıqlamaları göstərir ki, trioda yer alan kilsəyə yeni mərhələdə Ermənistan cəmiyyətində azərbaycanlılara qarşı nifrət hissi aşılayan təbliğatı daha da gücləndirmək, erməniləri “qisas müharibəsinə” hazırlamaq “missiyası” həvalə olunub. II Qareginin fəallığını artırması və müharibə ritorikasını sərtləşdirməsi ondan xəbər verir ki, kilsə katalizator funksiyasını yenə də can-başla yerinə yetirməyə çalışır. Ancaq trioda yer alan qüvvələr, o cümlədən də II Qaregin unutmamalıdır ki, onlar bu fəaliyyətləri ilə növbəti dəfə erməni xalqının taleyi ilə oynayırlar. Azərbaycan dəfələrlə bəyan edib ki, Ermənistana hücum etmək niyyətində deyil. Ancaq ermənilərin, elə revanşistlərin, lobbi dairələrinin və keşişlərin də yaxşı bələd olduqları “Dəmir yumruq” da həmişə yerindədir və hər an düşmənin başını əzməyə hazırdır!

***Mübariz FEYİZLİ***

# Sülh masasındakı iqtisadi maraqlar...

## Hərbi-siyasi detallar arxa plandadır

**Bu gün Rusiya-Ukrayna müharibəsinin yekunlaşması fərqli müstəvidə müzakirə olunur - burada əsasən iqtisadi amillər özünü büruzə verir, hərbi-siyasi detallar isə arxa plana keçir. Bu, Tramp administrasiyasının məsələyə münasibətində özünü bariz şəkildə ortaya qoyur. Artıq Zelenski hakimiyyətinə iqtisadi kriteriyalar üzərindən sülh təklif olunur. Rəsmi Kiyev isə həm ABŞ, həm də Aİ-nin Rusiya ilə müharibənin davam etməsində maraqlı olmadığını və masa arxasına oturmaqdan başqa çarəsinin qalmadığını dərk edir.**

### İqtisadi əməkdaşlıq - Kiyev üçün imkanlar yaranır

KİV-lərin məlumatına görə, Ukrayna Prezidentinin bu yaxınlarda ABŞ-a rəsmi səfəri gözlənilir. İddia olunur ki, səfər çərçivəsində Kiyev və Vaşinqton arasında iki saziş imzalanacaq - Ukrayna ərazisindəki mineral ehtiyatların istismarı və İnvestisiya Fondunun yaradılması ilə bağlı saziş gündəm mövzusuna çevrilib. Artıq bir müddətdir ki, iki dövlət arasında bu istiqamətdə intensiv danışıqlar aparılır.

Zelenski son mətbuat konfrasında bəyan edib ki, ikinci saziş ilə bağlı müzakirələr daha ciddi və çətin olacaq: "Fondla bağlı sövdələşmə planlaşdırılıb. Orada tərəfdaşlıq münasibətləri, maliyyə və digər məsələlər dəqiqləşdiriləcək". O, vurğulayıb ki, ABŞ və Ukrayna arasında imzalanması planlaşdırılan nadir metallarla bağlı saziş gəlirin 50 faizinin kompensasiya edilməsini nəzərdə tutur: "Mənim üçün vacib olan bizim borclu olmamağımızdır, sazişdə də nə 500, nə 350, nə də 100 milyard dollarlıq borc qeyd olunub. Bu, bizə qarşı ədalətsizlik olardı". Ukrayna prezidenti bir məqamı da qeyd edib ki, fondla bağlı sövdələşmə Ukraynanın maraqlarının nəzərə alındığı tərəfdaşlıq layihəsidir.

Eyni zamanda ABŞ-ın maliyyə naziri Skot Bessent "Financial Times"a yazdığı məqaləsində qeyd edib ki, Vaşinqton resursları idarə etmək üçün xüsusi fond yaratmağı təklif edir - Ukrayna istehsaldan əldə olunacaq gəlirlərin üçdə ikisini fonda verəcək. Bu da təxminən 500 milyard dollara bərabərdir. ABC-ın "This Week" verilişinə müsahibə verən Respublikaçı Mayk Louler isə deyib ki, Zelenski Tramp administrasiyası ilə iqtisadi əməkdaşlıq etməlidir: "ABŞ Ukraynanı dəstəkləmək üçün yüz milyardlarla dollar sərmayə qoyub və bu müharibə nəhayət başa çatdıqda, Ukraynanın yenidən qurulması üçün əhəmiyyətli investisiyalara ehtiyacı olacaq".

Sözsüz ki, Ukraynada mineral ehtiyatların istismarı birbaşa ABŞ şirkətləri tərəfindən həyata keçiriləcək - ehtiyatlardan əldə olunacaq milyardlarla dollar dəyərində gəlir isə İnvestisiya Fonduna yatırılacaq. Fond isə gəlirləri zaman-zaman həm Ukrayna-



nın ABŞ-a olan borclarını bağlayacaq, həm də Ukraynada müharibənin fəsadlarının aradan qaldırılmasına - ölkədəki şəhərlərin və qəsəbələrin bərpasına, sənaye və enerji obyektlərinin yenidən qurulmasına sərf olunacaq. Bu o deməkdir ki, burada ABŞ-la yanaşı Ukrayna da qazanclı

### ABŞ Rusiya ilə də bu sahədə əməkdaşlıq etmək istəyir

Tramp ABŞ-Rusiya münasibətləri ilə bağlı son çıxışında Vaşinqtonun Moskva ilə böyük iqtisadi layihələr üzərində işləməyə hazır olduğunu bildirib - o, qeyd edib ki, bu istiqamətdə ikitərəfli danışıqlar aparılır: "Mən birbaşa Rusiya Federasiyasından özümüz üçün faydalı nəsə almaq istəyirəm. Biz Rusiya ilə iqtisadi inkişafla bağlı bir neçə müqavilə bağlamağa çalışırıq. Rusiyanın nadir torpaq metalları, digər böyük resursları var, biz onları istəyirik".

Kremlin Trampın təklifinə reaksiyası gecikməyib - Rusiya prezidentinin biznes və investisiya üzrə xüsusi nümayəndəsi Kiril Dmitriyev bildirib ki, Rusiya tərəfi ABŞ-la iqtisadi əməkdaşlığa hazırdır. Putin də Trampın təklifinə müsbət yanaşıb - o bildirib ki, Rusiya ABŞ-la nadir torpaq ehtiyatlarının istismarı sahəsində birgə əməkdaşlıq etməyə hazır olacaq: "Rusiya nadir torpaq metal ehtiyatlarına görə dünya liderlərindən biridir. Moskva öz mineral ehtiyatlarının yeni regionlarda işlənməsi üçün xarici tərəfdaşlarla əməkdaşlığa hazırdır" - deyə Putin onu da vurğulayıb ki, Rusiya ABŞ bazarına 2 milyon ton alüminium tədarük edə bilər.

Hazırda ABŞ ilə Rusiya arasında gedən danışıqlar prosesində müzakirə olunan ən mühüm məsələlərdən biri ikitərəfli iqtisadi münasibətlərin bərpərar olunmasıdır - həm Ağ Ev, həm də Kreml anlayır ki, bu istiqamətdə ortaq maraqların bölüşdürülməsi hər iki ölkə arasında böyük investisiya layihələrinin həyata keçməsinə və hər iki ölkənin qlobal bazarda birgə əməkdaşlığına yol açacaq. İlkin razılaşma mineral ehtiyatların istismarından başlaya bilər.

çıxacaq. Ən önəmli məqam isə Ukrayna bununla ABŞ-dan təhlükəsizlik zəmanəti də alacaq, yəni ABŞ şirkətlərinin Ukraynada fəaliyyət göstərəcəyi təqdirdə münaqişənin yenidən alovlanması qeyri-mümkün olacaq - Vaşinqton buna imkan verməz.

Ekspertlər hesab edirlər ki, regionda münaqişə dondurulmuş vəziyyətdə davam etsə belə, Vaşinqton ilə Kiyev arasında yeni iqtisadi əməkdaşlıq Ukrayna üçün münasib imkanlar yaradacaq - bu, ölkənin həm dirçəlməsində, həm iqtisadi inkişafında, həm də təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayacaq.

### Trampın geoiqtisadi hədəfləri

Tramp administrasiyasının həm Ukraynada, həm də Rusiyada nadir torpaq elementlərinin istismarında maraqlı olması birbaşa geoiqtisadi hədəflərə söykənib - ABŞ-a həm regional, həm də beynəlxalq səviyyədə iqtisadi mənfəət qazandırmaq. Ağ Ev Ukraynadakı mineral ehtiyatların istismarından əldə olunacaq gəlirlərlə Kiyevin Vaşinqtona olan borclarını bağlamaq, Rusiyadakı ehtiyatların istismarına gəlincə, Moskva ilə böyük iqtisadi layihələr həyata keçirməklə ABŞ-ın şirkətlərinə milyardlarla dollar vəsait qazandırmaq niyyəti güdür. ABŞ-ın beynəlxalq rəqabətdə rolunu daha da gücləndirmək hazırki administrasiya üçün ilkin prioritetdir. Bu baxımdan ABŞ-ın digər regionlardakı mineral sərvətlərə də maraq göstərəcəyi istisna deyil.

### Avropa da oyundan kənar qalmaq istəmir

ABŞ-ın ardınca Avropa İttifaqı da Ukraynaya "kritik əhəmiyyətli" faydalı qazıntıların hasilatı sahəsində əməkdaşlıq haqqında saziş bağlamağı təklif edir - Avropa Komissiyasının sənaye strategiyasına cavabdeh olan Stefan Sejourne bildirib ki, Ukrayna Aİ sənayesini 30 mineraldan 21-i ilə təmin edə bilər.

Təbii ki, Ukraynanın çıxılmaz durumda olduğunu görən Aİ də vəziyyətdən sui-istifadə etməyə çalışır. Rəsmi Brüssel Kiyevə onunla da belə bir sazişin imzalanmasına sövq edə, hətta öz kriteriyalarına uyğun investisiya fondunun təsis edilməsini təklif edə bilər. Aİ çox yaxşı başa düşür ki, Ukraynadakı nadir torpaq elementləri həm Rusiyaya, həm də ABŞ-a milyardlarla dollar mənfəət qazandıracaq. Bu baxımdan Aİ də Ukraynadakı imkanlardan yararlanmaq istəyir.

*Yunis ABDULLAYEV*

# Düşmənlərin əbədi izdivacı

## Qustav Floberin "Salambo" romanı haqqında

əvvəli ötən saylarımızda

Savaş bundan sonra da səngimir. Tanitin duvağı respublikaya qaytarılsa da, qiyamçılar yenidən Karfageni mühasirəyə alırlar. Spendi şəhərin su təchizatı sistemini dağıdır, bundan sonra Karfagenə vəba epidemiyası yayılır. Ağsaqqallar adət üzrə savaş tanrısı Moloxa dövlətli balalarından təcili qurban verilməsinin vacib olduğunu bildirirlər. Hamilkarın on yaşlı oğlu Hannibala növbə çatanda atası onu gizlədib yerinə qullarından birinin uşağını verir, sonra da yalandan yas saxlayıb kədərə qərq olur. Tanrı Moloxun çağırışından yayındırılan bu uşaq məktəblilərin qədim dünya tarixi dərsliklərindən tanıdığı həmin o Pun müharibəsinin məşhur qəhrəmanı Hannibaldır.

Molox qurbanları qəbul eləyir, ayindən dərhal sonra Karfagenə yağış yağır. Nar Havas şəhərə ərzaq keçirə bilir. Üstəlik, barbarların qələbəsindən çəkinən Roma, Sirakuz kimi dövlətlər də düşmən ölkənin tərəfini saxlamağa məcbur qalırlar. Nəhayət, qiyamçılar ağır məğlubiyyətə uğrayırlar. Onların düşərgəsində aclıq başlanır, sağ qalanlar ölənlərin ətini yeyirlər. Spendi həlak olur, Mato öz dəstəsiylə şiddətli müqavimət göstərməsinə baxmayaraq əsir düşür, Nar Havas toru onun başına öz əliylə keçirir. İnadkar döyüşçünün edamı Salambonun toyu gününə salınır. Edamdan qabaq Matonu şəhərin küçələriylə qolubağlı gəzdirirlər ki, hər kəs ona istədiyi şəkildə xətər yetirə bilsin. Əzabın, işgəncənin müddəti uzansın deyə məhkumun gözünü çıxarmaq, üröyindən vurmaq qadağan olunur.

Gəlinlik donu geyinmiş Salambo bir zaman muzdlu qoşuna ziyafət verilən bağdan bu mənzərəni görəndə igid Mato özü boyda qan yumağına dönmüş olur. Didik canı caynaq-caynaq yağmalanan Matonun sona yalnız gözləri diri qalır, qanına bələnmiş cəngavər həmin diri gözlərini Salamboya dikib durur. Qız yalnız indi anlayır ki, bu oğlan ondan ötrü nə qədər cəfa çəkib. Çadırında Matonun ona necə nəvaziş göstərdiyini, ona sevgi dolu sözlər pıçıldadığını xatırlayır. Bu vaxt amansız işgəncələr altında son damla gücünü də itirən Mato yıxılıb canını tapşırır. Öz qələbəsindən məst olan Nar Havas ayağa qalxıb Salambonun qucaqlayır, şadyanalıq eləyən şəhər əhlinin gözü qarşısında Karfagenin şərəfinə qızıl piyalədən şərab içir. Salambo da əlində piyalə ayağa qalxır, şərabı dodağına aparmamış yenidən taxta çökür, gözəl başı dərhal çiyninə düşür. "Tanitin duvağına toxunmağının cəzası kimi Hamilkarın qızı beləcə öldü", - roman bu cümləylə də başa çatır.

Nə qədər ki Salambo qızlıq örtüyü, həya pərdəsi altında məsum ruh kimi, mələk kimi dolaşır, ölümün ondan xəbəri olmur. Qız o pərdəni üzündən götürmək istəyəndə həyat mexanizmi bütün gücüylə işə düşür, bu çarx özüylə birgə ölümü də hərəkətə gətirir. Bakirə Tanitin duvağına əl aparan iki nəfərin ikisi də əcəldən son payını alır, bir-birinə daha möhkəm izdivacla bağlanır.

***

Tanit gözəllik, məsumluq, qızlıq simvolu, Molox igidlik, coşqu, ərlik rəmzidir. Molox ildırım çaxdıran qəzəbli göyü, Tanit bərəkət yetirən həlim yeri simvolizə eləyir. Salambo eşq tanrıçası Tanitin, Mato da savaş tanrısı Moloxun təcəssümü, hər biri öz allahının kahinidir - ikisi də bir-birini məhz bu cür tanıyıb qəbul eləyir. Zahirən bir-birinin tərs üzü olsalar da, üzlə astartək bir-birindən çox da uzaq deyillər, biri o birini tamamlayır, biri o birindən törəyir. Biri olmasa, o biri də olmaz, necə ki, Mato olmayanda Salambo da olmadı.

Tanitlə Molox maddi-bioloji dünyanın iki ayrılmaz qütbü, fələyin iki üzüdür - biri həyat bağışlayır, o biri öldürür, biri becərir, o biri biçir, biri verir, o biri alır. Tanit yunan tanrısı Erosun bacılığı, Molox Tanatosun qardaşlığıdır. Salambo ilə Mato kimi onlar guya qarşı duran düşmən cəbhələrdə təmsil olunsalar da, gerçəkdə bir-biriylə nəfəs alıb yalnız birlikdə var ola bilirlər. Üzdən elə görünür ki, bu antaqonist ünsürlərin izdivacı qışla yazın birliyi kimi dünya durduqca baş tutmaz, əslində isə onlar heç vaxt ayrılmayıb, bir an belə ayrı yaşamayıblar. Onlar təbiət ananın bir-birinə təməlindən calanmış, bir bətndə mayalanıb içiçə bəslənmiş, bir yerdə doğulub böyümüş bir cüt əkiz övladıdır - olumla ölüm kimi. Onların kəbini aləmin ilk zərrəsi vücuda gələndə kəsilib. Biri cahan mülkündən silinəndə o birini də özüylə aparır - Mato Salambonu apardığı kimi. Heç bir savaş, düşmənçilik, heç bir ordu, heç bir qüvvə onları bir-birindən ayıra, təbiətin qüdrət qələmiylə imzalanmış bu izdivacı poza bilməz.

Yazıçının əsərinə ölüb getmiş sivilizasiyanı, yer üzündən silinmiş bir şəhəri məkan seçməsi də rəmzi məna daşıyır. Şərq poeziyasının Mədain xarabələri kimi Karfagen də Qərb ədəbiyyatı üçün fanilik, yoxluq simvolu, olum-ölüm arasındakı ziddiyyətlərin cah-cəlalı, ehtişamı puça çıxarıb sıfırladığı açıq məzardır. Karfagen ordusuyla barbarların qoşunu da həyatın bir-birinə qənim kəsilmiş, eyni zamanda bir-birinə güc verən iki təzadlı qütbünün timsalıdır. Ziddiyyətlər bir-biriylə düşmənçilik aparsa da, bir-birini yaşadır. Qədim dünyanın ən parlaq sivilizasiyalarından sayılan Karfagen respublikası da daxilindəki barışmaz təzadı aradan qaldırandan sonra məhv olur. Fani həyatın dəyişməz tək qanunauyğunluğu budur. Bu həyat bütün savaşan tərəfləri, bütün müsbət-mənfi emosiyaları bir tərpənməz, əbədi sıfır nöqtəsinə, sükunət instansiyasına çağırıb orada heçə çıxarır. Flober də insanlığa məhz o sıfır nöqtəsindən səslənir.



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Cümə qiraəti



# Buz heykəl



Qırx birinci ilin qışı. Şaxtalı bir gecə. Elə bil canlı-cansız ətrafda nə varsa donub buz bağlamışdır. Hava zəhərli ilan kimi çalır, daş çatlayır, ağac çıqqıldayır, torpaq çatırdayır, nəfəs tıxanır, tikan kimi boğazda qalır.

Və indi ağappaq bir zülmət içində günçıxana tərəf ucsuz-bucaqsız qarlı çöllərlə tənha bir kölgə hərəkət edir.

O, gənc bir anadır, körpəsini bağrına basmışdır, yurdunu tapdayan yırtıcı düşmən əlindən baş götürüb qaçmışdır, namusunu qara əllərdən xilas eləmişdir, özünü və ciyərparəsini bu rəhmsiz gecənin ağuşuna atmışdır.

Və indi ağappaq bir zülmət içində, günçıxana tərəf üz tutub Böyük torpağa tərəf gedir.

Qarşıda sahilləri meşəlik böyük bir çay var, cəbhə xətləri o çay yaxasından keçir və zaman-zaman ordan gələn top gurultuları gecələr dağlardakı qar uçqunlarının çoxmərtəbəli nəriltiləri kimi şaxtalı gecəni titrədib lərzəyə salır.

Və ana tələsir, hava işıqlanmamış o özünü cəbhə xəttinə yetirməlidir, körpəsini çayın o tayına - azad torpağa keçirməlidir, sinəsi üstündəki uşaq həyatını yenidən ocaq istisi, gündüz işığı, günəş ziyası ilə isindirməlidir.

Ana nəfəsini dərmədən gedir, yıxılır, qar içində batıb qalır, çırpınır, qar içindən ayağa qalxır, amma nə qədər yol gedirsə elə bil zaman da bu gecə donub hərəkət eləmir, saniyələr yerində sayır, irəli getmir və qarlı çöllərin sonsuzluğunda bir qarış tükəniş əlaməti görünmür.

Ana taqətdən düşür, şaxta zəhərlə suvarılmış qılınc kimi kəsir və anaya elə gəlir ki, bu qılınc indi onun qucağındakı körpənin həyatına qəsd edir və ananın alacalanmış gözləri daldalanmaq üçün bir bucaq, pənah gətirmək üçün bir sığınacaq axtarır.

Bir az irəlidə qoşa bitmiş bir cüt ağcaqayın ağacı iki ağ sütun kimi göyə ucalmışdır, ana o ağaclara doğru gedir, qucağındakı körpəsi ilə o ağaclara söykənib dayanır, indi ayaq üstə dayanmaq üçün, nəyəsə istinad etmək üçün bu sonsuz qarlı çöllərdə bu bir cüt çılpaq ağcaqayın ağacından savayı ana üçün digər bir istinadgah yoxdur...

Şaxta isə buzlu bir alov kimi ananın üz-gözünü qarsır və ana ürəyində qıvrılan bir qorxunun ağladığını, şivən qopardığını eşidir - körpə donur, körpə donacaq, qolları arasındakı kövrək bir nəfəs sönəcək, sinəsi üstünə buz bağlamış bir dünyanın ağırlığı çökəcək...

Lakin ana ürəyində ağlayan qorxuya üsyan eləyir - qoy dünya donub buzlağa dönsün, həyat yer üstündən qaçıb yer altına köçsün, yenə də ana ürəyinin hərarəti sönməyəcək və rəhmsizliyi ilə bədheybət olan heç bir kor qüvvə kiçik bir həyat fidanını ananın sinəsindən qoparda bilməz!

Və ana kəskin bir hərəkətlə əynindən yun jaketini çıxardır və bərk-bərk körpəsini büküb bürgələyir, amma şaxta qızmar bir dəmir kimi ananın üz-gözünü dağladıqca iliklərinə işləyən soyuqdan vücudu tir-tir əsib titrədikcə anaya yenə elə gəlir ki, bu donan, bu titrəyən körpəsidir və ana bu dəfə başından qalın şalını da qopardır və yenə körpəsini büküb- bürmələyir, özü isə yalın əyni ilə şaxta qarşısında müdafiəsiz qalır.

İndi o hiss edir ki, donur, şaxtanın buzlu kəməndindən qurtuluşa gümanı yoxdur və istinadı yalnız budur ki, söykəndiyi bu bir cüt ağcaqayın ağacı onu tutub ayaq üstündə saxlamışdır və ana yenə bir əlilə əynindən nəsə qopardır və bir əlilə əynindən nə qopardırsa hamısını bir-bir körpəsinin üstünə qalaqlayır və titrəyən son nəfəsini, eşidilməyən son sözünü də körpəsinin üstünə örtür - qorxma tifilim, qorxma, ufacığım, son nəfəsimin istisi də sənindir...

Sonra ana susur, beynində batqın bir uğultu qopur, qulaqları dibində sınıq cingiltili mis simlər bir-birinin ardınca qırılır, ananın göz qapaqları kilidlənir, nəfəsi çilik-çilik olub ayaqları altına tökülür, ana şaxtanın buz zəncirilə qoşa ağcaqayın ağaclarına bitişib hərəkətsiz qalır. Və indi göydə ulduzları cingildədən amansız bir qış gecəsi anaya başqa bir don biçir, başqa bir örtü geyindirir və şaxtanın buz barmaqları dayanmadan ana üçün büllur naxışları ağ ulduzlu yeni bir libas toxuyur...



***

Ovxarlanmış bir qılınc tiyəsi kimi kəskin işığı ilə göz qamaşdıran şaxtalı bir səhər açılmışdır.

Və iki ağ sütun kimi göyə ucalan qoşa ağcaqayın ağacları qarşısında çiyinləri ağxalatlı üç nəfər dayanmışdır.

Onlar gecə kəşfiyyatından qayıdan üç nəfər gənc döyüşçüdür, indi hər üçü başlarını açıb yerlərindən qımıldanmadan, gördükləri bir mənzərə qarşısında donub qalıblar və onlar bütün ömürləri boyu qarşısında dayandıqları bu mənzərəni unutmayacaqlar...

Bu, donmuş gənc bir qadının buzdan tökülmüş buz heykəlidir.

Və onlar, üç nəfər gənc döyüşçü müqəddəs bir mehrab qarşısında dayanmış kimi nəfəslərini udublar. Nə vaxtdan bəri gəlib burda dayanıb durduqlarını unudublar və daş kimi ürəklərindən asılan hissin ifadəsi söz xaricində qaldığı üçün, susublar!

Nəhayət onlardan biri yerindən tərpənir, nə isə bilinməz bir qüvvə çəkib onu irəli aparır, yaxınlaşır, donmuş qadının buz heykəli qarşısında dayanır və bir an tərəddüddən sonra hans bir sövqi-təbii hissin və daha artıq dəlicəsinə bir ümidin təlqini ilə ananın qolları arasındakı üstü buz bağlamış düyünçəni yoxlayır, həyəcandan titrəyən barmaqları ilə qanı çırpır, dırnaqları ilə buz təbəqəsini qəlpə-qəlpə qopardır və ürək döyüntüsilə buz altındakı örtükləri çözür, açır, dağıdır və birdən... Ordan, düyünçənin dərinindən kiçik bir varlığın baxışları gözlərinə zillənirkən, bütün gözlədiklərinə və gözləmədiklərinə rəğmən bu ansızın körpə baxışından səksənir, döşündən itələnmiş kimi bir addım geri sıçrayır və sonra dönür təlaş içində ona baxan yoldaşlarına, susub durmuş bu sonsuz qarlı çöllərin səssizliyinə və donmuş, buz bağlamış bütün bu dünyaya üz tutub qıy vurur:

- Körpə sağdır, uşaqlar eşidin, körpə sağdır və qoy bütün dünya eşitsin, körpə sağdır!

Və o vaxt ki, hər üçü baş-başa verib ana qucağındakı körpənin üstünə əyilir, baxırlar, gözlərinə inanmırlar, baxırlar, boğazlarında düyünlənən qəhərdən heç biri heç bir söz deyə bilmir, səhər işığından gözləri qamaşan körpə isə donmuş ana qucağından heyrətlə onlara baxır və gülümsəyir - dəfələrlə od-alov içindən keçmiş üç gənc döyüşçünün gözlərində yaş durmur və hər üçü əllərinin tərsilə gözlərini silirlər.

Sonra başlarını qaldırırlar, yenidən ananın buz heykəlinə baxırlar və yerə kimi səcdə edərək, son dəfə ananın buz heykəli qarşısında baş əyirlər.

Vaxtdır - geri dönməlidirlər və hər üçü bir-biri arxasınca sıraya düzülüb geri dönürlər - və körpəni növbə ilə bir-birindən alıb sinələri üstə aparırlar və hər dəfə körpə kimin qucağında gedirsə, digər ikisindən biri öndə, biri arxada körpənin keşiyində mövqe tutub addımlayır.

Və indi gənc ananın buz heykəli artıq onlar üçün tuncdan tökülmüş əbədi bir heykəldir ki, ana ürəyinin ölməz şücaəti təcəssüm etdirən ən möhtəşəm bir abidə kimi həmişə onların xəyalında həkk olub qalacaqdır...

**Bakı, 1944**

# Qeyri-adi və nadir xəstəliklər

## Dünya əhalisinin yalnız 5 faizini əhatə edir...

Bəzən hansısa xəstəlikdən əziyyət çəkənlərə “Dərdi verən Allah, dərmanı da verər” deyirik. Lakin bu deyim hər dəfə özünü doğrultmaya bilər. Çünki tibb nə qədər inkişaf etsə də, elə xəstəliklər var ki, müasir tibb də onun qarşısında aciz qalır. Bəşəriyyətin mübarizə etdiyi xəstəliklərin bəzisi yüngül olur və müalicə ilə aradan qaldırıla bilir. Nadir və çarəsi bilinməyən xəstəliklər üçün isə heç bir dərman kəşf olunmayıb və çox güman ki, onlar hələ uzun illər boyu bəşəriyyətdə böyük bir sirr olaraq qalacaq.

Hər il bu xəstəliklərin siyahısı genişlənir. Məsələn, keçən il tibbə məlum olmayan xəstəliklər bu il siyahıya daxil olur. Ya da 10 il əvvəl mövcud olan qəribə xəstəliklər artıq siyahıda yoxdur.

### Nadir xəstəliklərin 72 faizi...

Hazırda dünyada 6 mindən çox nadir xəstəlik aşkar edilib. Avropa İttifaqına (Aİ) görə, bir xəstəliyin nadir sayılması üçün hər 2 min nəfərdən birində həmin xəstəlik müşahidə edilməlidir. Nadir xəstəliklərin 72 faizi irsi olduğu halda, qalanları ətraf mühit, infeksiya və ya allergiya səbəbindən yaranır. Bu halda doğulan uşaqların 30 faizi 5 yaşına çatmadan dünyasını dəyişir. Təxminən 30 milyon xəstə ilə ABŞ bu günə qədər ən çox nadir xəstəliklərin qeydə alındığı ölkələr arasında birinci, 20 milyon xəstənin qeydə alındığı Çin isə ikinci sıradadır. Avropada isə 36 milyon insan nadir xəstəliklərlə mübarizə aparır.



### “Daş adam sindromu”

Nadir xəstəliklərdən olan “Daş adam sindromu”ndan əziyyət çəkən insanlarda zamanla bədəndəki əzələlər, vətərlər və birləşdirici toxumalar sümükləşir. Tibbi adı “Fibrodysplasia Ossificans Progressive (FOP)” olaraq bilinən bu xəstəlik dünyada 2 milyon insandan yalnız birində rast gəlinir, lakin hələ də müalicəsi yoxdur.

### Qaçış sindromu...

Bu xəstəliyə tutulan xəstələrin yüzdə 25-30-u ölüm riski yaşayır. Qaçış sindromu dünyada yalnız 60 nəfərdə rast gəlinib. Ayaqlarda şişmə və halsızlıq ilə başlayan xəstəlik nəfəs darlığı, təngnəfəslik, böyrəklərin fəaliyyətinin dayanması, təzyiqin enməsi və orqan çatışmazlığına səbəb ola bilir.

### Erkən yaşlanma

Tibbdə adı Progeriya olan erkən yaşlanma dünyada 5 milyonda bir görülən xəstəlikdir. Bu xəstəlik daşıyıcılarında zəka və beyin inkişafı normal olsa da, orqanlar və dəri sürətli şəkildə qocalır. Xəstələrin çoxu ən azı 15 yaşına qədər yaşaya bilir. Modern tibbdə müalicəsi olmayan Progeriyaya bu günə qədər 30 nəfərdə rast gəlinib.

### Alveoler proteinozis...

Xəstəliyin qeyri-üzvi tozlara qarşı həssas olduğu məlum olsa da, nədən yarandığı məlum deyil. Milyonda 5 insanda rast olunan xəstəlik birdən-birə yüksək qızdırma, öksürək, sinə ağrısı, nəfəs darlığı ilə müşayiət olunur.

### “Ağac adam” xəstəliyi

Dünyanın ən nadir xəstəliklərindən biri olan ağac xəstəliyi bir növ dəri xəstəliyidir. İnsanlarda ziyil kimi quruluşların meydana gəlməsinə səbəb olan isə insan papilloma (HPV) virusudur. Nadir xəstəlik zamanı bu ziyillər tədricən ağac kökü kimi forma almağa başlayır. Əllər və ayaqlardakı bu kötüklər o qədər böyüyür ki, bir müddət sonra onları istifadə etmək mümkün olmur. Xəstəliyin kökündə genetik pozğunluq dayansa da, yuxarıda adıçəkilən virus da əsas səbəb sayılır.

### Sirenomelia- Su pərisi xəstəliyi

Dünyada nadir görülən xəstəlik zamanı uşaqlar ayaqları yapışıq formada dünyaya gəlirlər. Bu görünüşləri ilə su pərilərinə oxşadıqları üçün xəstəlik belə adlanır. Bu cür körpələrin ayaqları cərrahiyyə əməliyyatı ilə ayrılsa da, böyrək və ifrazat sistemi yetərincə inkişaf etmədiyi üçün uzun müddət yaşamaları çətindir. Bundan əlavə, belə uşaqların cinsiyyət orqanları da içəridə qalaraq görünmür.

Yeri gəlmişkən, Avropa Nadir Xəstəliklər Təşkilatının (EURORDIS) təşəbbüsü ilə fevralın 28-i Beynəlxalq Nadir Xəstəliklərin Günü kimi qeyd olunur. Təşkilatın məlumatına görə, nadir xəstəliklər dünya əhalisinin yalnız 5 faizini əhatə edir. Belə xəstəliklərin diaqnozu çətin olduğundan və xəstəliyi aşkarlamaq təxminən 5-7 il müddət çəkdiyindən bir çox xəstələr müalicədən məhrum olur.

***Yeganə BAYRAMOVA***

# 10 tələbə Azercell-dən təqaüd qazanıb

***Şirkət “Tələbə Təqaüdü 2025” proqramının qaliblərini elan edib***




Azercell “Parlaq gələcəyə yaxın ol!” şüarı ilə həyata keçirilən “Tələbə Təqaüdü 2025” proqramının qaliblərini təbrik edib. Şirkət daha 10 tələbəyə təhsil müddətinin sonunadək hər ay təqaüd ayıracaq.

Seçim prosesi boyunca Azercell nümayəndələri həmçinin bir sıra universitetlərdə tələbələrlə görüş keçirib, şirkətin təqaüd və karyera imkanları barədə məlumat veriblər. Proqrama ölkənin müxtəlif ali məktəblərindən 450 tələbə müraciət edib. Namizədlər beş mərhələli seçim çərçivəsində yazılı tapşırıqlar, elmi potensialın qiymətləndirilməsi və müsahibələr əsasında dəyərləndirilib.

Bu il təqaüd proqramında Kibertəhlükəsizlik, Data Elmləri, Süni İntellekt, Radiotexnika və Telekommunikasiya mühəndisliyi, İnformasiya Texnologiyaları ixtisasları üzrə təhsil alan tələbələr fərqləniblər.

Təqaüdlə yanaşı, qaliblər həmçinin Azercell-də təcrübə keçmək, peşəkar inkişafını gücləndirmək üçün müxtəlif təlimlərdə iştirak etmək, şirkətin korporativ tədbirlərinə qatılmaq və telekommunikasiya sahəsində biliklərini artırmaq imkanı da əldə edəcəklər.

Qeyd edək ki, istedadlı gənclərə daima dəstək olan Azercell 16 il ərzində 300-dən çox tələbəyə təqaüd ayırıb.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4688
Sifariş: 402
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova